**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**FƏXRƏDDİN ADİL OĞLU CƏFƏROV**

# XIX-XX ƏSRLƏRDƏ NAXÇIVANDA HÜQUQ-MÜHAFİZƏ ORQANLARININ (POLİS) YARANMASI VƏ FƏALİYYƏTİ (1828-2000-CI ILLƏR)

**İxtisas: 5503.02 -Vətən tarixi**

**Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2013**

Dissertasiya Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **İsmayıl Muxtar oğlu Hacıyev**
AMEA-nın həqiqi üzvü, tarix üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Oqtay Balaqədəş oğlu Sultanov**
tarix üzrə elmlər doktoru, professor

**Ataxan Əvəz oğlu Paşayev**
tarix üzrə elmlər doktoru

**Vəkil Səfiyar oğlu Həsənov**
tarix üzrə elmlər doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın müasir tarixi" şöbəsi

Müdafiə "30" _11___ 2013-cü il saat $11^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi nəzdində fəaliyyət D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev pr. 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, Akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" _______________ 2013-ci ildə göndərilmişdir.

**D.01.211 Dissertasiya Şurasının elmi katibi:** **E.A.Şıxəliyev**
**Tarix üzrə fəlsəfə doktoru, dos.**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan xalqının tarixi müqəddəratında, inkişaf və tərəqqisində, müstəqillik uğrunda mübarizəsində polis orqanlarının çox mühüm yeri və rolu vardır. Qədim dövr və orta əsrlərdən etibarən özünəməxsus şəkildə – darğalar formasında[1] fəaliyyət göstərən polis orqanları Azərbaycanın Rusiya tərəfindən işğalı, Cümhuriyyət, sovet hakimiyyəti və müstəqillik dövrlərinin hər birində ciddi formalaşma, təşkilatlanma prosesləri keçirmiş, yüksələn xətlə inkişaf etmişdir. Lakin aparılan araşdırmalarda bütün bunlar diqqətdən kənarda qalmış, geniş mənada, Azərbaycan polisinin yeri və mövqeyi bütün dolğunluğu ilə tədqiqatlarda əksini tapa bilməmişdir. Məhz bu mənada Azərbaycan polisinin ayrılmaz tərkib hissəsi olan Naxçıvan polisinin keçdiyi yol özünəməxsusluğuna, yerləşdiyi regionun coğrafi mövqeyinə, apardığı mübarizənin parlaq səhifələrinə görə müstəqil və əhatəli bir tədqiqatın mövzusuna çevrilmək imkanına malikdir.

XIX əsrdə Naxçıvan mahalında polis orqanlarının yaradılması və formalaşdırılması ilə əlaqədar həyata keçirilən tədbirlərdən, XX əsrin əvvəllərində Araz-Türk Respublikası dövründə, sovet hakimiyyəti mərhələsində polisin təşkilatlandırılması, fəaliyyətinin təkmilləşdirilməsi sahəsində aparılan işlərdən, geniş mənada cəmiyyət həyatının xarakterindən asılı olmayaraq, dövlət quruculuğu proseslərinin tərkib hissəsi kimi bəhs etmək obyektiv reallığın ifadəsidir. Bu mənada dissertasiyada Naxçıvan polisi ilə əlaqədar müxtəlif mənbələrdən aşkar edilərək geniş ictimaiyyətə təqdim edilən çoxsaylı faktlar və məlumatlar, ümumiyyətlə, tariximizin daha dərindən və gerçək surətdə öyrənilməsinə də xidmət edir. Eləcə də elmi dövriyyəyə daxil edilən bu materiallar tariximizdə və ictimai fikrimizdə dərin izi qalmış bir çox şəxsiyyətlərin, milli ziyalılarımızın həyat və fəaliyyətinin ayrı-ayrı, indiyədək naməlum qalmış məqamlarını da aydınlaşdırmağa imkan verir. Məşhur Kəngərli sülaləsindən olan Kalbalı xan (2-ci), Sərvər xan, Bəhram xan, Nəzərəli xan (Böyük xan), Məhəmmədəli xan, Yunis xan, Məhəmmədəli xan Naxçıvanskilərin, Fərəc bəy, Şirəli bəy, Əyyub ağa, Əbdüləzim bəy, Pirmurad bəy Kəngərlinskilərin və başqalarının Naxçıvan polisinin inkişafındakı xidmətlərinin araşdırılması, Bəhram xan Naxçıvanskidən Araz-Türk Respublikasının Daxili İşlər Komissarı kimi bəhs olunması polis

---

[1] Cəfərov F.A. Naxçıvan qəza polisi (1828-1920-ci illər). Bakı: Nurlan, 2008, s. 2. Əliyev F., Əliyev M.A. Naxçıvan xanlığı. Bakı: Azərnəşr, 1996, s. 24.

orqanlarının işi ilə yanaşı həm də Naxçıvan Kəngərlilərini də bütün genişliyi ilə öyrənməyə şərait yaradır.

Həm XX əsrin əvvəllərində, həm də sovet hakimiyyətinin ilk dövrlərində Naxçıvan mahalındakı qaçaqçılıq hərəkatı və polisin bu sahədəki fəaliyyəti barəsində sənədlər və informasiyalar xalqımızın milli-azadlıq tarixinə işıq salır.Dissertasiyada göstərilən faktlar qaçaqçılığı hərəkat səviyyəsində öyrənmək arzusunda olanlar üçün fayda verə bilər. Xüsusən Qaçaq Nəbi, Qaçaq Süleyman, Musa Məmmədhəsən oğlu, İsmayıl, Kərbəlayi Teymur, Heydər Pirkətan oğlu[2] və başqa qaçaqların həyatı, mübarizəsi və başqa bu kimi məsələlər mühüm əhəmiyyətə malikdir.

1905-1907-ci illər inqilabının təsiri ilə Mirzəli bəy Bəktaşi, Mirbağır Mirheydərzadə, Nəsrulla Şeyxov, Heydər Məmmədov və başqalarının "Hümmət" təşkilatının Naxçıvan qrupunu təşkil etmələri və bu qrupun 1920-ci illərə kimi çar monarxiyasına qarşı mübarizəsi, polis və xəfiyyə agentlərinin bunlara qarşı təqibləri, həbs olunmalar ilə bağlı çox maraqlı, əhəmiyyətli faktlar dissertasiyada öz əksini tapmışdır.

1905-1907-ci illərdə olduğu kimi 1918-1920-ci illərdə Naxçıvan bölgəsinə soxulan erməni daşnaklarına qarşı "Qırmızı tabor"çularla birlikdə polis əməkdaşlarının mübarizəsinin ilkin sənədlər əsasında öyrənilməsi tarixşünaslığımızda aktual məsələlərdəndir.

1920-1940-cı illərdə Daxili İşlər Komissarlığı və onun yerli orqanlarının daxili asayişin qorunmasında, cinayətlərin qarşısının alınmasında, daşnak ermənilərin Naxçıvan bölgəsindən çıxarılmasında, İran kürdlərinə və xaricdən gələn quldur dəstələrinə və banditizmə qarşı mübarizədə böyük xidməti olmuş və onlarla milis işçisi ağır döyüşlərdə həlak olmuşdur.

Böyük Vətən müharibəsi illərində də milis (polis) işçilərinin alman-faşist işğalçılarına qarşı apardıqları mübarizənin şanlı tarixi vardır. Həmin illərdə Azərbaycandan 800-dən çox və eləcə də Naxçıvan Muxtar Respublikasından 50-yə yaxın milis işçisi cəbhələrə getmişdir. Arxa cəbhədə qalanlar isə sənaye müəssisələrini, dəmir yollarını və hərbi obyektləri mühafizə edir və qələbəni yaxınlaşdırmaq üçün arxa cəbhədə əllərindən gələni edirdilər.

Müharibədən sonra Azərbaycanın bütün bölgələrinin, eləcə də Naxçıvan Muxtar Respublikasının zəhmətkeşləri siyasi fəallıq və əmək coşğunluğu ilə bərpa və quruculuq işlərinə başlamışdılar. Təbiidir ki,

---

[2] Cəfərov F.A. Naxçıvan qəza polisi (1828-1920-ci illər). Bakı: Nurlan, 2008, s. 48.

müharibənin tüğyan etdiyi bir ölkədə soyğunçuluq, dövlət əmlakını oğurlama və s. cinayət halları baş verirdi. Bütün bunlara qarşı mübarizədə milis orqanlarının üzərinə ciddi məsuliyyət düşürdü.

Sonrakı illərdə də milis orqanları cinayətkarlıqla mübarizədə və qayda-qanunun qorunması məqsədi ilə böyük işlər görmüşlər. Amma 30-cu illərdən başlayaraq durğunluq, bürokratik idarəetmə dövründə, demokratiya və quruculuğun kobud pozulduğu bir şəraitdə hüquq mühafizə orqanlarının fəaliyyətində neqativ hallar da var idi.

Totalitar dövlət idarəetməsi, Stalin şəxsiyyətinə sitayiş, hakimiyyətdən sui-istifadə, kütləvi repressiyalar polisin fəaliyyətini müəyyənləşdirən əsas stimullar idi. Stalinin Azərbaycandakı canişini M.Bağırovun təkhakimiyyətliyi nəticəsində respublikada minlərlə günahsız insanlar kütləvi qırğına məruz qaldılar[3].

XX əsrin 30-40 və 50-ci illərinin əvvəllərində ölkənin bütün inzibati orqanlarında qanunların pozulması, vəzifədən sui-istifadə və digər neqativ hallar baş verirdi. Milis də digər hüquq mühafizə orqanları kimi yuxarıdan verilən əmrlər nəticəsində qanunsuz cəzalandırma tədbirlərində iştirak etmişdir. Eyni zamanda Naxçıvan MSSR milisinin bir çox vicdanlı əməkdaşları, əsasən də komanda heyəti işçiləri də özbaşınalıq və qanunsuzluq qurbanlarına çevrilmiş və səbəbsiz halda cəzaya məruz qalmışdır.

Bu baxımdan Azərbaycan milisinin (polisinin) ayrılmaz hissəsi olan Naxçıvan milisinin tarixinin öyrənilməsi nəzəri və praktik əhəmiyyətə malikdir. Azərbaycan milisinin tarixinin obyektiv şəkildə araşdırılması indiki nəslin, əsasən də gənc hüquq mühafizə işçilərinin vətənpərvərlik ruhunda tərbiyə edilməsində böyük əhəmiyyət kəsb edir.

1960-1970-ci illərdə daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı bir sıra mühüm qərarlar qəbul edilmişdir. 1969-cu ildə Azərbaycan KP MK-nın avqust plenumunda qəbul edilmiş qərar milis əməkdaşlarının fəaliyyətindəki nöqsanların aradan qaldırılmasına, onların işinin yaxşılaşdırılmasına, mühüm tədbirlərin həyata keçirilməsinə təkan vermişdir.

Azərbaycan KP MK-nın 1982-ci il oktyabr plenumunda qəbul edilmiş qərarlar hüquq-mühafizə orqanları qarşısına belə mühüm tələblər

---

[3] Алияров И.М. Создание и деятельность рабоче-крестьянской милиции Азербайджанской ССР (1920-июнь 1941 г). Автореф. дис... на соискание ученой степено кан.ист. наук. Баку, 1990, s. 4-5.

qoymuşdur: işdə süründürməçiliyə son qoymalı, cinayətin başvermə səbəbləri və onun zəmini aşkar edilməli, aradan qaldırılmalıdır.

Bu plenumda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev çıxış etmiş, hüquq-mühafizə orqanlarının fəaliyyətində olan nöqsanları çox ciddi şəkildə tənqid etmiş və demişdir: "Cinayətkarlığa qarşı səmərəli mübarizədə hüquq-mühafizə orqanları kadrlarının seçilməsinin və yerləşdirilməsinin son dərəcə böyük əhəmiyyəti vardır"[4]

70-80-ci illərdə Naxçıvan Muxtar Respublikasında narkomaniya və alkoqolizmə qarşı mübarizə daxili işlər orqanlarının ön planda duran sosial profilaktik tədbirlərindən biri və əsası hesab olunurdu. Sərxoşluq, narkomaniya və alkoqolizm sosial təhlükə törətdiyi kimi, qanun pozuntularının meydana gəlməsində də əsas rol oynamışdır. Belə ki, ağır cinayətlərin çoxu-ölüm,zorlama, soyğunçuluq, kobud xuliqanlıq məhz sərxoş vəziyyətdə törədilirdi.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin "Sərxoşluq və alkoqolizmə qarşı mübarizə tədbirlərin gücləndirilməsi haqqında" 20 iyun 1985-ci il tarixli[5] qərarının icrası ilə əlaqədar Naxçıvan MSSR DİN-də tədbirlər planı hazırlanıb icraya yönəldilmişdir. Bu sahədə hüquqi təbliğata daha geniş yer verilmiş, sərxoş halda edilən cinayətlərin istintaqına diqqət daha da artırılmış, cinayətin baş vermə səbəbləri təhlil edilmiş, cinayəti doğuran səbəb və şəraitin aradan qaldırılması üçün təsiredici vasitələrdən geniş istifadə edilmişdir.

Bu illərdə Naxçıvan MR DİN və şəhər, rayon daxili işlər şöbələrinin başlıca vəzifələri əməliyyat profilaktik işi düzgün və səmərəli təşkil etməkdən, baş vermiş cinayətlərin vaxtında açılması və cinayətkarların ifşa edilməsinə nail olmaqdan, dövlət əmlakını dağıdanlara, rüşvətxorluq, sərxoşluq, alkoqolizm, narkomaniyaya qarşı qəti və ciddi mübarizə aparmaqdan ibarət olmuşdur.

Sovetlər İttifaqının süqutundan sonra müstəqilliyini qazanan Azərbaycanda bir çox sahələrlə yanaşı polis sistemində də aparılan islahatlar ölkənin demokratikləşməsi yolunda atılan ən mühüm addımlardan biridir. Ümummilli liderimiz Heydər Əliyev öz çıxış və nitqlərində polis orqanlarının fəaliyyətindən danışmış, problemlərə toxunmuş, qeyd etmişdir ki, polis orqanı gərək xalq tərəfindən hörmət

---

[4] Nax.MRDA(keçmiş partiya arxivi). F. 1, s. 16, iş14, v. 34-35, Kominist qəzeti. 1982, 24 oktyabr.

[5] Nax. MRDA. f. 1, s. 28, iş 62, v. 35.

edilən bir orqan olsun, polis işçisi gərək xalq tərəfindən sevilsin, ona hörmət edilsin.

Ümummilli liderimiz Heydər Əliyevin "Mən Azərbaycan Prezidenti kimi, Ali Baş Komandan kimi sizə etibar edirəm, sizə inanıram, sizə arxalanıram" söyləməsi Azərbaycan polisinə verilən ən böyük qiymətdir. Ulu öndər bütün fəaliyyəti boyu Azərbaycan polisinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atmış, daim onların qayğısına qalmışdır. Bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev də polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə xüsusi önəm verir, daxili işlər orqanlarının maddi-texniki bazasının gücləndirilməsi yönümündə mühüm tədbirlər həyata keçirir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun diqqət və qayğısı nəticəsində Naxçıvan Muxtar Respublikasında da daxili işlər orqanlarının maddi-texniki bazasının ən müasir səviyyəyə çatdırılması üzrə əməli təşkilatı tədbirlər işlənib həyata keçirilmişdir.

Bu baxımdan polis orqanlarının, onların inkişaf yolunun, tarixinin və təcrübəsinin müəyyənləşdirilməsi, ümumiləşdirilməsi aktuallıq kəsb edir.

Azərbaycan polisinin tərkibində Naxçıvan polisi bölgənin tarixi, taleyi, burada baş verən proseslərlə əlaqədar özünəməxsus yol keçmişdir. Mövzunun aktuallığını şərtləndirən səbəblərdən biri də Naxçıvan polisinin keçdiyi tarixi yolun indiyəcən tədqiq edilməməsidir. Halbuki cəmiyyət həyatının ayrı-ayrı mərhələlərində yerli polis orqanlarının yaradılması, formalaşması və inkişafı tariximizin üzvi bir parçasıdır. Bununla bağlı çoxsaylı fakt və məlumatlar tariximizin qaranlıq səhifələrinin açılmasına, bir sıra mübahisəli məsələlərin gerçək surətdə aydınlaşdırılmasına yardım göstərə bilər.

Azərbaycanın çar Rusiyasının müstəmləkəsi olduğu zamanda, Cümhuriyyət dövründə, sovet dönəmində, nəhayət, müstəqillik illərindəki, fəaliyyəti Naxçıvan polisinin keçdiyi yolun mürəkkəbliyini, çətinliyini bir daha sübut edir.

Göründüyü kimi, Naxçıvan polisinin keçdiyi yolun tədqiqi, ayrı-ayrı dövrlərin öyrənilməsi, bir sıra mübahisəli məsələlərin araşdırılması tarix elminin qarşısında dayanan ən vacib problemlərdən biridir. Lakin bu problemə toxunulmamış, Naxçıvan polisinin keçdiyi yolun mənzərəsini yaratmaq sahəsində heç bir iş görülməmişdir.

Çar Rusiyası dövründə, SSRİ dönəmində, başqa sahələrdə olduğu kimi, polis sistemində də ciddi dəyişikliklər baş vermiş, dövlətin əsas

sütunlarından biri olan polisin fəaliyyətinə fərqli münasibətlərin formalaşmasına şərait yaranmışdır.

Məlumdur ki, dövlətçiliyin möhkəmləndirilməsində, demokratik cəmiyyət quruculuğunda, cinayətkarlığa qarşı mübarizədə böyük xidmətləri olan Naxçıvan polisi torpaqlarımızın qorunması uğrunda erməni qəsbkarları ilə vuruşlarda əsl döyüşən orduya çevrilmişdir.

Dissertasiya işinin aktuallığını şərtləndirən cəhətlərdən biri də problemə kompleks yanaşılması, uzun bir tarixi dövrün tədqiqata cəlb edilməsidir.Ümummilli liderimiz Heydər Əliyevin 24 may 1998-ci il tarixli fərmanı ilə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin tərkibində ilk polis orqanlarının təsis edildiyi gün-2 iyul Azərbaycan Polisi günü elan edilmişdir. Məhz bu tarixi sənəd Azərbaycan polisinin keçdiyi yolu araşdırarkən qarşıya çox ciddi vəzifələr qoyur və mövzunun tədqiqini aktuallaşdırır.

Məlumdur ki, polis rus çarizminin hökmranlığı, eləcə də sovet rejimi dövründə də fəaliyyət göstərmişdir. Elə bu da həmin dövrləri polisin tarixinin ən ziddiyyətli, mürəkkəb, gərgin illəri kimi şərtləndirir. Yad rejimin tüğyan etdiyi dövrdə polisin fəaliyyətinin obyektiv tədqiqi üçün məsələyə tərəfsiz mövqedən yanaşılması çox zəruridir. Məsələyə bu prizmadan yanaşdıqda bir daha aydın olur ki, problemin kompleks şəkildə tədqiqi böyük elmi və siyasi aktuallıq kəsb edir.

Azərbaycan polisinin mühüm tərkib hissəsi olan Naxçıvan polisinin həqiqi tarixinin ilkin mənbələr əsasında araşdırılması həm də tarixi zərurətdən irəli gəlir.

Ümummilli liderimiz Heydər Əliyev tarixin olduğu kimi, obyektiv öyrənilməsini və yazılmasını çox mühüm vəzifə kimi qarşıya qoyurdu. Naxçıvan polisinin tarixinin də bu aspektdə tədqiqi, hadisələrə xüsusi həssaslıqla yanaşılması ciddi elmi perspektivlərə malikdir.

Polisin fəaliyyətinin cəmiyyətin bütün təbəqələri, həyatın bütün sahələri ilə sıx bağlı olduğunu nəzərə alsaq, dissertasiyanın, demək olar ki, bölgənin uzun bir tarixi dövrünü əhatə etdiyi qənaətinə də gəlmiş olarıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqillik uğrunda mübarizədə, milli dövlətçiliyimizin qorunub-saxlanılmasında, möhkəmləndirilməsind qazanılan parlaq nailiyyətlərdə polis orqanlarının danılmaz fəaliyyətini yüksək qiymətləndirir. Tədqiqat zamanı bütün bunlar əldə rəhbər tutulmuş, əsas götürülmüşdür.

Azərbaycanlı polis işçilərinin represiyaya uğraması, qeyri-azərbaycanlıların rəhbər polis orqanlarında çalışmaqla hadisələrə düşmən mövqedən müdaxiləsi ilə bağlı mülahizələrə aydınlıq gətirilməsi,

Naxçıvanın tarixi taleyi ilə bağlı bəzi erməni və ermənipərəst tədqiqatçıların elmə zidd iddialarının əsassızlığının sübut edilməsi çox aktual vəzifələrdəndir.

Elmi dövriyyəyə çıxarılmış çoxlu yeni arxiv sənədlərinə, ilkin mənbələrə söykənərək demək olar ki, Azərbaycanın ictimai-siyasi həyatında zaman-zaman xüsusi rol oynamış, Naxçıvan bölgəsində baş vermiş bir sıra hadisələrin milli müstəvidə dəyərləndirilməsində iştirak edən polis orqanlarının fəaliyyətinin öyrənilməsi çox zəruridir. Bütün bunlar da Naxçıvan polisinin keçdiyi yolun geniş şəkildə araşdırılması vəzifəsini qarşıya qoyur.

Naxçıvan polisi ilə bağlı elə aktual problemlər vardır ki, onları araşdırıb üzə çıxarmadan tariximizdəki bəzi boşluqları doldurmaq olmaz.

Bizim apardığımız tədqiqat Naxçıvanda polisin keçdiyi çətin, keşməkeşli və mübariz yolun bütün mənzərəsini faktların, sənədlərin, informasiyaların köməyi ilə sistemli, əhatəli və problematik şəkildə işıqlandırdığı üçün orijinal, yeni və aktualdır.

**Tədqiqatın predmeti**. XIX əsrdə Naxçıvanda polis orqanlarının yaradılması, keçdiyi ciddi formalaşma, təşkilatlanma proseslərinin tarixinin, bir çox görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinin ayrı-ayrı, indiyədək naməlum qalmış məqamlarının sistemli, dərin və hərtərəfli şəkildə öyrənilib üzə çıxarılması ilə bağlı materiallar tədqiqatın əsas predmetini təşkil edir.

Dissertasiyada daha çox tarixşünaslığımızın aktual problemlərinə, çoxsaylı arxiv sənədlərinə yerli və xarici mətbuatın materiallarına, tədqiqatlara istinad edilmişdir.

Dövlət quruculuğu prosesində Naxçıvan polisinin yeri və mövqeyi məsələləri araşdırılmış, bu müstəvidə bir sıra zəruri məsələlər hərtərəfli şəkildə tədqiq və təhlil olunub qiymətləndirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyada əsas məqsəd Naxçıvan polisinin tarixi yolunu tariximizin tərkib hissəsi kimi araşdırmaq, çıxarılan nəticələri ümumiləşdirməkdən ibarətdir. Bu problemin həllinə nail olmaq məqsədilə tədqiqatda aşağıdakı elmi məsələlərin şərhinə üstünlük verilmişdir:

1. Naxçıvanda polis orqanlarının yaradılması, təşəkkülü, formalaşması, inkişaf yollarını üzə çıxarmaq.

2. Məşhur Kəngərli sülaləsindən olan Kalbalı xan, Sərvər xan, Bəhram xan, Nəzərəli xan (Böyük xan), Məhəmmədəli xan, Yunis xan, Məhəmmədəli xan, Fərəc bəy, Şirəli bəy, Əyyub ağa, Əbdüləzim bəy və başqalarının Naxçıvan polisinin inkişafındakı rolunu araşdırmaq, görkəmli

yazıçı Cəlil Məmmədquluzadənin polis orqanlarındakı fəaliyyətini tədqiqata cəlb edib, bütün bunlar barədə dolğun elmi təsəvvür yaratmaq.

3. "Erməni vilayəti"ni yaratmaq çar hökumətinin əsəs məqsədini aydınlaşdırmaq.

4. Çoxsaylı arxiv sənədləri, faktlar, məlumatlar əsasında Naxçıvan polisinin həmin illərdə fəaliyyəti ilə bağlı hərtərəfli elmi təsəvvür yaratmaq.

5. Həmin dövrdə polisdə əsasən qeyri-azərbaycanlıların yüksək vəzifə daşımasının səbəblərini müəyyənləşdirmək.

6. 1900-cu ilin əvvəllərində polis mühafizə dəstələrinin sayının artırılmasının, hərbi-polis qüvvələrinin saxlanılması üçün ayrılan məbləğin artırılmasının səbəblərini araşdırmaq.

7. Xanlıqların işğalı dövründə çar hökuməti və şah xəfiyyəsinin əlbir fəaliyyətinin səbəb və nəticələrini şərh etmək, həm XIX, həm də XX əsrlərin əvvəllərində rus istilası ilə əlaqədar qaçaq hərəkatının əsl elmi qiymətini vermək, Naxçıvan bölgəsində azadlıq düşüncəsinin, milli həqiqət duyğusunun tarixən güclü olduğunu faktlarla sübut etmək.

8. Andranik Ozanyanın Naxçıvana hücumu zamanı bölgə polisinin fəaliyyətini araşdırmaq.

9. Araz-Türk Respublikası dövründə (noyabr 1918 – mart 1919) ərazinin erməni işğalçılarından qorunmasında Naxçıvan polisinin rolunu şərh etmək.

10. 1922-ci ildə "Milislərin təmizlənməsi komissiyası"nın yaradılmasının səbəb və nəticələrini üzə çıxarmaq.

11. 1932-1940-cı illərdə partiya, sovet, milis orqanlarında işləyən ermənilərin repressiyaya uğramış bölgə əhalisinə qarşı fəaliyyətini və mövqeyini üzə çıxarıb qiymətləndirmək.

12. Sovet dönəmində Naxçıvan polis orqanlarında xüsusi xidmətləri olan, xalqa vicdanla xidmət etmiş polis işçilərinin fəaliyyətini üzə çıxarmaq.

13. 1988-ci ildən sonra baş vermiş hadisələrin elmi şərhini vermək, bu hadisələrdə Naxçıvan polisinin rolunu aydınlaşdırmaq.

14. Ərazi bütövlüyünün qorunması, müstəqilliyimizin möhkəmləndirilməsi, demokratik cəmiyyət quruculuğu, cinayətkarlığa qarşı mübarizə yollarında Naxçıvan polisinin rolunu müəyyənləşdirib qiymətləndirmək.

**Mövzunun öyrənilmə səviyyəsi.** Tədqiqata cəlb etdiyimiz "XIX-XX əsrlərdə Naxçıvanda hüquq mühafizə orqanlarının (polis) yaranması və fəaliyyəti (1828-2000-ci illər)" mövzusu bu vaxta qədər Azərbaycan tarixşünaslığında xüsusi tədqiqat obyekti olmamışdır. Azərbaycanda

hüquq-mühafizə orqanları ilə bağlı kitab və məqalələrdə də bu mövzuya toxunulmamışdır.

XIX əsrin birinci rübündə Naxçıvanda mövcud olan xanlıq üsul-idarəsinin daxili və xarici siyasətinin öyrənilməsində, XIX əsr və XX əsrin əvvəlləri üçün Naxçıvan bölgəsinin tarixi demoqrafiyası barədə məlumatları, ermənilərin Azərbaycana, o cümlədən Naxçıvana köçürülməsi və onların milli münasibətlərin subyektinə çevrilməsi prosesinin öyrənilməsi baxımından əhəmiyyətli olan V.N.Qriqorev,[6] S.Qlinka,[7] Y.N.Marr,[8] K.N.Nikitin,[9] İ.Şopen,[10] N.Skolskiy,[11] N.İ.Şavrov[12] kimi rus qafqazşünas alimlərin əsərləri, habelə bəzi məqalə və nəşrlər Qafqaz xalqlarının həyatına dair maraqlı mənbələr olmaqla, milli münasibətlərin ziddiyyətli cəhətlərinin kökünün araşdırılmasına imkan verir.

Azərbaycan, eləcə də Naxçıvan polisinin tarixi heç də XX əsrin sovet quruculuğu dövründən başlanmır. Bu tarix xeyli əvvəllərə, yəni XIX əsrə gedib çıxır. Məsələ bundadır ki,
hələ xanlıq dövründə Naxçıvan bölgəsində ayrı-ayrı naibliklər yaranıb və həmin naibliklərdə onlarca darğa fəaliyyət göstərib. Həmin darğalar indiki sahə polis müvəkkillərinin işini görüb.

İlk dəfə F.Əliyev və M.A.Əliyev "Naxçıvan xanlığı" kitabında sahə polisinin işini görən darğalar haqda məlumat vermişlər.[13] Həmçinin 1914-cü ildə nəşr olunmuş "Памятная книжка Эриванской губернии" (İrəvan quberniyasının yaddaş kitabçası) kitabında İrəvan quberniyasının, Naxçıvan və Şərur-Dərələyəz qəzalarının bütün sahələri, o cümlədən Naxçıvan, Şərur-Dərələyəz qəzasının və Naxçıvan şəhərinin 1-ci və 2-ci

---

6 Григорьев В.Н. Статеческое описание Нахичеванской провинции. СПб, 1833, s. 263.

7 Глинка С. Описание армянь азербайджанских в предели Россий. Баку: Элм, 1990, s. 144.

8 Марр Ю.Н. Передная Азия в документах. кн.1. Тифлись, 1936, s. 143.

9 Никитин К.Н. Город Нахичеван и Нахичеванский уезд // СМОМПК, вып.11, Тифлис, 1882.

10 Шопен И. Исторический памятник состояния армянской области в эпоху её соединения к Российской империи. С-П; «Импер. Акад. Наук.» 1852, s. 1231.

11 Сокольский Н. Материалы по изучению Нахичеванской ССР. Тифлис: 1933, s. 133.

12 Шавров Н.И. Новая угроза русскому делу в Закавказье. СПб., 1911.

13 Əliyev F., Əliyev M.A. Naxçıvan xanlığı. Bakı: Azərnəşr, 1996, s.106.

sahə polisi və polisdə xidmət edən naxçıvanlılar haqda çox kiçik məlumat verilmişdir.[14]

Azərbaycan tarixinin və o cümlədən, Azərbaycan tarixinin ayrılmaz qolu olan Naxçıvan tarixinin maraqlı, eyni zamanda, mürəkkəb və ziddiyyətli dövrü 1918-1920-ci illəri əhatə edir. Bir çox xüsusiyyətlərinə görə uzun müddət üzərindən sükutla keçilən və mənəvi repressiyaya məruz qalan bu iki il Azərbaycan xalqının təkcə şərəfini və vicdanını deyil, eyni zamanda onun milli mövcudluğunu da zamanın imtahanına çəkmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin timsalında Azərbaycan xalqı bu çətin imtahandan şərəflə çıxmışdır.

Xüsusilə bu zaman kəsiyində Naxçıvan bölgəsində kəskin, ziddiyyətli siyasi-hərbi proseslər getmiş, erməni təcavüzü təhlükəsi artmış, yerli əhali Türkiyənin fəal yardımı ilə öz istiqlalı uğrunda ciddi mübarizə aparmışdır. Uzun müddət kommunist ideologiyasının hakimliyi bu dövrün obyektiv tarixini yaratmağa imkan verməmişdir. Ancaq XX əsrin 90-cı illərindən başlayaraq Azərbaycan tarixinin ən mürəkkəb dövrü kimi səciyyələnən 1918-1920-ci illər, bu illərdə Naxçıvan bölgəsində siyasi vəziyyət İ.M.Musayevin,[15] A.Hacıyevin,[16] Ə.Abdullayevin,[17] V.Arzumanlı,[18] F.A.Cəfərovun[19], M.B.Əliyevin[20], T.Əhmədovun,[21] H.Həsənoğlunun,[22] V.Quliyevin,[23] A.Ə.Paşayevin,[24] İ.E.Atnurun[25],

---

[14] Памятная книжка Эриванской губернии на 1914. Эриван, 1914, 232 с.

[15] Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər) Bakı: BDU, 1998, s. 35.

[16] Hacıyev A. Qars və Araz Türk Respublikalarının tarixindən. Bakı: Azərnəşr, 1994, s. 124.

[17] Abdullayev Ə. Ermənistan Azərbaycana qarşı təcavüzkar siyasəti tarixindən. Bakı: Elm, 1995, s. 165.

[18] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1999, s. 260.

[19] Cəfərov F.A. Naxçıvan qəza polisi (1828-1920-ci illər). Bakı: Nurlan, 2008, s. 192.

[20] Əliyev M.B. Qanlı günlərimiz. Bakı: Azərnəşr, 1993, s. 142.

[21] Əhmədov T. Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918-1920). Bakı: Şirvan, 2001, s. 31

[22] Həsənoğlu H. Dünyanın mənfur milləti: erməni: Bakı: Əbilov, Zeynalov və oğulları, 2003, s. 256.

[23] Quliyev V. Azərbaycanda erməni zülmü. Bakı: Ozan, 1999, s. 227.

[24] Paşayev A.Ə. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərnəşr, 2001, s. 535, Yenə onun. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında): Tarix elm.dok...dis. Bakı, 2007, s. 368.

E.Y.Cəfərov,[26] General Veysəl Ünüvar[27] və başqalarının monoqrafiyaları və elmi dövriyyəyə çıxarılmış arxiv sənədləri xüsusi elmi yeniliyə və mühüm tarixi əhəmiyyətə malikdir.

M.B.Əliyevin "Qanlı günlərimiz" adlı gündəlik xarakterli kitabında Araz-Türk Respublikası dövründə yaranmış müstəqil Naxçıvan Daxili İşlər Nazirliyinin və onun rəhbəri Məhəmmədəli xan Naxçıvanskinin, polis əməkdaşlarının 1918-1920-ci illərdə Naxçıvan bölgəsində erməni cinayətkarlarına qarşı apardıqları mübarizədən və bölgədə sabitliyin saxlanılması, ictimai-siyasi vəziyyətdən danışılır.[28]

Sovet işğalından sonra, XX əsrin 20-30-cu illərində Azərbaycan SSR-də fəhlə-kəndli milisinin yaranması və fəaliyyətinə həsr olunmuş xüsusi tədqiqatlar Azərbaycan tarixşünaslığında, demək olar ki, çox az olmuşdur.

Müvafiq olaraq 1977-1987-ci illərdə sovet milisinin 60-70-ci illiyinə həsr olunmuş ümumiləşdirici əsərlərdə, 2 cilidlik Sovet milisinin tarixi və "Sovet milisi: tarix və reallıq. 1917-1987" adlı kitablarda milisin tarixi inkişafı fonunda Azərbaycan milisinin təşkili və fəaliyyətinə dair bir sıra yarımçıq məlumatlar verilir.[29]

1920-1930-cu illərdə bu istiqamətdə ilk addımlar atılmışdır. Məqalələr, kiçik kitablar nəşr edilmişdir. "Daxili İşlər Xalq Komissarlığı xəbərləri" (1920-1921), "Daxili İşlər Komissarlığının rəsmi məlumatları" (1921-1925), "Sovet Azərbaycanı milisi" (1921-1922), Azərbaycan SSR Xalq Komissarlar Soveti nəzdində fəhlə-kəndli milisi Baş İdarəsinin qərar və tapşırıqlar toplusu (1931-1932) və 1933-cü ilə kimi "İnqilab keşiyində" qəzetində milisin quruluşu, kadrları, cinayət-axtarış orqanlarının fəaliyyəti haqqında materiallar fikrimizə sübutdur. Burada həm də partiya və hökumət qərarları, əmr və göstərişləri, təlimatları da dərc edilmişdir.

Azərbaycanda milisin və cinayət axtarış orqanlarının fəaliyyəti haqqında XX əsrin 30-cu illərində çap edilmiş kitablardan ən maraqlısı İsrafil İbrahimovun "İkinci onilliyin ərəfəsində" adlı əsəridir.

---

[25] Atnur İ.E. Muxtariyyat ərəfəsində Naxçıvan. Naxçıvan: Qeyrət, 1999, s. 442.

[26] Cəfərli E.Y. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi. Bakı: Nurlan, 2009, s. 280.

[27] General Veysəl Ünüvar. Naxçıvan: Təlatüm və burulğanlar (1920-1921). Naxçıvan: Əcəmi, 2006, s. 104.

[28] Əliyev M.B. Qanlı günlərimiz. Bakı: Azərnəşr, 1993, s. 142.

[29] Алияров И.М. Создание и деятельность рабоче-крестьянской милиции Азербайджанской ССР (1920-июнь 1941 гг): Автореферам, диссертации на соискание ученой степено кан.ист.наук. Баку; 1990, s. 26.

Azərbaycanda milisin yaranması və möhkəmləndirilməsində böyük əməyi olan, quldurluq və cinayətkarlıqla mübarizədə bilavasitə iştirak edən Baş Milis İdarəsinin rəisi İ.İbrahimov kiçik bir kitabda Azərbaycan fəhlə-kəndli milisinin 10 il ərzində keçdiyi inkişaf və fəaliyyət yolunu işıqlandırmışdır. Kitabda eləcə də ciddi təhlillər aparılır, milis orqanlarının gələcək fəaliyyəti ilə bağlı diqqətəlayiq təkliflər irəli sürülür.[30]

1980-ci ildə Azərbaycan milisinin 60 illiyi ilə əlaqədar olaraq "Həmişə keşikdə Azərbaycan milisi tarixin səhifələri 1920-1980" adlı tarixi publisistik xülasə dərc edilmişdir.[31] Amma müəlliflər arxiv və dövrü mətbuatın materiallarından çox az istifadə ediblər. Kitab Azərbaycan milisinin yaranması, inkişafı və fəaliyyəti haqqında ümumi təsəvvür yaratsa da burada Naxçıvan milisi haqda heç bir məlumat verilmir.

Azərbaycan milisinin yaranması və fəaliyyəti haqqında görkəmli tarixçilər Z.İ.İbrahimov, M.M.Mirhadıyev, E.İ.Məmmədov, T.S.Əzimovun əsərlərində də qısa məlumatlara rast gəlirik.[32] Lakin onlar da Naxçıvan milisi ilə bağlı elə bir məlumat verməmişlər. Bu mövzuya Azərbaycan tarixşünaslığında ilk dəfə öz elmi tədqiqatlarında xüsusi yer ayıran tarix elmləri namizədləri İ.Əliyarov[33] və T.Behbudov[34] olmuşlar.

Sovet dönəmində milisin fəaliyyəti ilə bağlı çoxlu sayda əsərlər nəşr olunmuşdur. R.S.Mulikayev[35], S.B.Blenko[36], M.Əyyubov[37] və başqalarının əsərlərinin təhlili göstərir ki, problemə mərkəzin irəli sürdüyü prinsiplərə uyğun yanaşılmış, sovet ideologiyası əsas götürülmüşdür.

---

[30] Ибрагимов И. На грани второго десятилетная (о 10-ти летнем юбилее Рабоче-крестьянской миличии Азербайджана) Баку: 1931, s. 64.
[31] Алияров И.М. Создание и деятельность рабоче-крестьянской милиции Азербайджанской ССР (1920-июнь 1941 гг):Автореф, дис на соискание ученой степено кан.ист.наук. Баку; 1990, s. 12.
[32] Yenə orada, s. 12
[33] Əliyarlı İ.M., Behbudov T.R. Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti (1918-1920-ci illər). Bakı: Qismət, 1998, s. 160.
[34] Əliyarlı İ.M., Behbudov T.R. Azərbaycan Daxili İşlər Orqanlarının tarixi. Ensiklopedik soraq kitabı: I kitab. Bakı: Qismət 2003, s. 159.
[35] Муликаев Р.С. Организационно-правовые основы становления советской Милиции (1917-1920 г.) М.: АНМВДССР, 1975, s. 107.
[36] Биленко С.В. Советская милиции России: организация советской рабоче-крестьянской милиции РСФСР и ее деятельность по охчапе революционного порядка (1917-1920). Москва: 1976.
[37] Əyyubov M. Cinayətkarlıqla mübarizədə Sovet milisinin təhqiqat fəaliyyəti. Bakı, 1976, s. 508.

Müstəqillik illərində hüquq-mühafizə orqanları ilə bağlı elmi-tədqiqat işləri aparmış F.M.Abbasova[38], A.R.Adilova[39], M.S.Aslanov[40], Ə.X.Eyvazov[41], S.S.Əhmədov,[42] B.Ə.Əliyev[43], İ.M.Əliyarov[44], Ş.S.Həsənov,[45] Ş.M.Xəlilov,[46] A.Ş.Qasımov,[47]T.T.Qurbanov[48] və başqalarının dissertasiyalarında aktual məsələlərə toxunulmuşdur.

V.Q.Abbasov,[49] C.H.Mövsümov,[50] Ş.S.Hüseynov[51] və başqalarının nəşr etdirdikləri dərslik və dərs vəsaitlərində yeri gəldikcə Azərbaycanda polisin yaranması, fəaliyyətinin bəzi mərhələləri barədə də söz açılmışdır.

---

[38] Abbasova F.M. Azərbaycanda məhkəmə ekspertizasının yaranması, müasir vəziyyəti və inkişafının hüquqi, elmi tənzimi məsələləri: Hüquq elm. nam...dis. Avtoref. Bakı, 2001, s. 225.

[39] Adilova A.R. Fevral inqilabından sonra Azərbaycan müvəqqəti hökumətin yerli hakimiyyət orqanlarının və şəhər özünüidarələrinin təşkili və fəaliyyəti (mart 1917-aprel 1918-ci illər): Hüquq elm. nam...dis. Bakı, 1995, s. 308.

[40] Aslanov M.S. Azərbaycanda inzibati ədliyyə. Hüquq elm.nam...dis. Bakı; 2005, s. 228.

[41] Eyvazov Ə.X. Cinayət-hüquqi sanksiyaların nəzəri problemləri. Hüquq elm.nam...dis. Bakı, 1997, s. 238.

[42] Əhmədov S.S. Tamah motivi ilə qəsdən adamöldürmə cinayətlərinə qarşı mübarizə. Cinayətin hüquqi və kriminoloji aspektlər. Hüquq elm.nam...dis. Bakı, 2005, s. 218.

[43] Əliyev B.Ə. Terrorçuluq cinayətlərinin ibtidai istintaqlarının materialları: Hüquq elm.nam...dis. Bakı, 2004, s. 218.

[44] Алияров И.М. Создание и деятельность рабоче-крестьянской милиции Азербайджанской ССР (1920-июнь 1941 гг). Автореф. диссертации на соискание ученой степено кан.ист.наук. Баку, 1990, s.26.

[45] Həsənov Ş.S. Azərbaycan Respublikasının yeni cinayət məcəlləsi üzrə yetkinlik yaşına çatmayanların məsuliyyətdən azad edilməsinin problem məsələləri: Hüquq elm.nam...dis, Bakı, 2005, 208 s.

[46] Xəlilov Ş.M. Azərbaycan Respublikasının yeni cinayət-prosesual qanunvericiliyi aspektində cinayət-mühakimə icraatında təqsirləndirilən şəxsi hüquqlarının təminatı: Hüquq elm.nam...dis, Bakı, 2006, s. 188.

[47] Qasımov A.Ş. Dəstə tərəfindən törədilən ictimai təhlükəli əməllərlə cinayət-hüquqi mübarizə: Hüquq elm. Nam...dis. Bakı, 2004, 238 s.

[48] Qurbanov T.Q. Azərbaycan Respublikasının qüvvədə olan cinayət-hüquqi mübarizə məsələləri: Hüquq elm.nam...dis. Bakı, 2003, s. 178.

[49] Abbasov V.Q., İsmayılov A.V., Eyvazov H.Q. İnzibati hüquq (Dərs vəsaiti): 3 hissədə, I h., Bakı: Qanun, 2004, s. 315.

[50] Mövsümov C.H. İbtidai istintaq. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Maarif, 1973, s. 215.

Tarixi qaynaqlar içərisində dövlət arxiv sənədləri də mühüm yer tutur. Mövzu ilə bağlı arxivlərdə əldə edilmiş çoxsaylı sənədlər elmi dövriyyəyə cəlb edilmişdir. Bunların sırasında Azərbaycan Respublikası Dövlət Arxivi, Azərbaycan Respublikası İctimai hərəkat və Siyasi Partiyalar Arxivi, Gürcüstan Respublikası Mərkəzi Dövlət Tarix Arxivi və Naxçıvan MR Dövlət Arxivindən toplanan sənəd və materiallar xüsusi yer tutur.

İ.Q.Abbasov,[52] H.R.Cəfərov,[53] Ə.İ.Əliyev,[54] İ.M.Hacıyev[55], Q.Ə.Mədətov,[56] İ.Kəngərli,[57] T.Köçərli,[58] C.Qasımov,[59] S.Zeynaloğlu,[60] Ş.G.Şahməmmədov[61] və başqa tarixçilərin kitab və məqalələri elmi nəzəri təhlillər aparılması baxımından da nəzəri cəlb edir.

Professor R.N.İvanovun "Basqın" (Нашествие)[62] əsəri bir neçə cəhətdən əhəmiyyətlidir.

Birincisi, professor R.N. İvanovun bu əsəri əvvəlki tədqiqat materiallarında olduğu kimi, ayrı-ayrı tarixi şəxsiyyətlərə yox, Naxçıvan tarixinə həsr olunmuşdur.

---

51 Hüseynov Ş.S., Kazımov Ə. Əməliyyat axtarış fəaliyyəti 100 suala 100 cavab (Dərs vəsaiti). Bakı: Qanun, 2004, s. 255.

52 Abbasov İ.Q. Cinayət haqqında ərizə və məlumatların polis orqanlarında qəbulu, uçotu və yoxlanılması zamanı qanunların icrasına prokuror nəzarəti. Bakı: Yurd, 2004, s. 858.

53 Cəfərov H.R. Azərbaycanda gənclər hərəkatı yeni inkişaf mərhələsində. Bakı: Adiloğlu, 2007, s. 224.

54 Əliyev Ə.İ. Əlincə yaddaşı. Naxçıvan 1914-1992. Bakı: Gənclik, 1997, s. 304. Yenə onun. Naxçıvanda sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə. Bakı: Azər.SSR Siyasi və elmi bilikləri yayan cəmiyyət. 1960, s. 38.

55 Hacıyev İ.M., Məmmədov Ş. Naxçıvan və naxçıvanlılar. Bakı: Elm, 2001, s. 280.

56 Mədətov Q.Ə. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı: Azərnəşr, 1958, s. 164.

57 Kəngərli İ.M. Kəngərli elinin soy kitabı. Bakı: Nurlan, 2005, s. 296.

58 Köçərli T. Yaddan çıxmaz Qarabağ, Nəqşi-cahan Naxçıvan. Bakı: Elm, 1998, s. 462.

59 Qasımov C. Repressiyadan deportasiyaya doğru, Bakı, 1998.

60 Zeynaloğlu S.(Sadiqov).Tarixin qanlı yaddaşı. Bakı: Gənclik, 1999, s. 121.

61 Şahməmmədov Ş.G. Həyəcan dolu beş il. sənədli publisistika. Bakı: "PUB", 1999, s. 224.

62 Иванов Р.Н. Нашествие. М. Герой Отчества, 2009, s. 448.

İkincisi, əsərdə Naxçıvanın tədqiqata cəlb olunan dövrü, 1920-1926-cı illər nəinki geniş oxucu kütləsi üçün, hətta tarixçi alimlərin əksəriyyəti üçün də az məlum olan və az tədqiq edilən bir dövrdür.

Üçüncüsü, əsər orijinal tərtibata malikdir. Kitabda 160 arxiv materialı ilk dəfə nəşr olunmuşdur. Bundan əlavə, rəsmi materialların, müsahibə və oçerklərin, zəngin bioqrafiya məlumatlarının yer aldığı kitabda XX əsrin əvvəllərindən əsrin sonlarına keçid edilmiş, Naxçıvan diyarının gerçək nicatının ümummilli lider Heydər Əliyevlə bağlı olduğu təkzibolunmaz faktlarla sübuta yetirilmişdir.

"Basqın" əsərinə daxil edilmiş 187 səhifədən ibarət "Xüsusi komissiyanın Naxçıvan diyarı haqqında məruzəsi"ni həyəcansız oxumaq mümkün deyil. "Çox məxfi" qrifi altında uzun müddət Rusiya arxivlərində saxlanan bu sənədin professor İvanov tərəfindən aşkar olunaraq nəşr edilməsi erməni-daşnak hücumlarından özünə gəlməmiş diyara bolşevik basqınının acı nəticələrini təsəvvür etməyə imkan yaradır. Komissiyanın tərtib etdiyi "qara siyahı"ya düşən 50 məsul işçidən 48-i repressiyaya məruz qalmış ("qara siyahı"ya düşən erməni millətinə mənsub iki şəxsə humanistlik göstərilərək onlar "rəhbərliyin sərəncamına" verilmişdir), 13 rəhbər işçi partiya sıralarından çıxarılmış, 4 nəfər heç bir məhkəmə qərarı olmadan güllələnmə, yerdə qalanları isə müxtəlif müddətlərə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş, 1925-ci il aprelin 5-dən 6-na keçən gecə kütləvi axtarış və həbs tədbirləri keçirilmişdir.

Çar hökuməti zamanı pristav, pristav köməkçisi, çinovnik, qorodovoy, uryadnik və s. vəzifələrdə işləmiş Yunis xan Naxçıvanski, Murad xan Naxçıvanski, Teymur Şəfiyev, Abbasqulu Tahirov, Bəylər ağa Kəngərli, Məmməd ağa Kəngərli, eləcə də 1923-cü ildən Naxçıvan MSSR Daxili İşlər Komissarı işləyən, komminist Qafar Babayev və başqaları həbs olunmuş, bir çoxu güllələnmiş və sürgün edilmişlər.[63]

H.Eyvazovun,[64] S.Elmanoğlunun,[65] Ə.Əliyevin,[66] İ.Əliyevin,[67] T.Əliyevin,[68] O.Əliyevin,[69] Ə.Ələkbərovun[70], H.Əsgərovun[71],

---

[63] Иванов Р.Н. Нашествие. М. Герой Отчества, 2009, s. 288-302

[64] Eyvazov H. Azərbaycan polisi Azərbaycan xalqının və dövlətinin keşiyindədir. "Xalq" qəz., Bakı, 2009, 30 iyun.

[65] Elmanoğlu S. Daxili işlər orqanları cinayətkarlığa qarşı bundan sonra da barışmaz mövqe tutacaq. "Azərbaycan" qəz., Bakı, 2005, 24 sentyabr.

[66] Əliyev Ə.İ. Naxçıvan inqilab komitəsinin sədri Mirzəli bəy Baktaşev. "Şərq qapısı" qəz., Naxçıvan, 1959, 1 sentyabr.

[67] Əliyev İ., İbrahimov F. Soyqırım və deportasiya ermənilər tərəfindən həyata keçirilən tarixi cinayətdir. // "Naxçıvan" jurnalı, 2001, № 5,s. 29-36

A.Qurbanovun,[72] A.Tarverdiyevin,[73] M.Məmmədovun,[74] Y.Əbülhəsənovun,[75] Ə.Tağıyevin,[76] İ.Hüseynlinin,[77] M.Hümbətovun,[78] Ş.Həsənəliyevin,[79] M.İsayevin,[80] Q.Qasımovun,[81] A.Qasımovun,[82] Ə.Məmmədovun,[83] X.Məmmədovun,[84] İ.Sadiqovun[85] və başqalarının "Azərbaycan", "Xalq qəzeti", "Şərq qapısı", "Mübariz keşikdə", "Sovet Naxçıvanı" və s. qəzetlərdə və "Naxçıvan" jurnalında Azərbaycan və Naxçıvan polisinin gündəlik fəaliyyəti barədə informasiya xarakterli

---

68 Əliyev T. Azərbaycan polisi öz vəzifə borcunu ləyaqətlə yerinə yetirir. "Xalq qəzeti", Bakı, 2007, 5 iyul.
69 Əliyev O. Azərbaycan polisi xalqımıza və dövlətçiliyimizə daim sadiq olacaq. "Xalq qəzeti", Bakı, 2004, 2 iyul.
70 Ələkbərov Ə. Azərbaycan polisi – 85 illik şərəfli və keşməkeşli yol. "Xalq qəzeti", Bakı, 2003, 2 iyul.
71 Əsgərov H. Cinayətkarlığa qarşı mübarizə tədbirləri güclənir. "Şərq qapısı" qəz., Naxçıvan, 2000, 26 iyul.
72 Qurbanov R. Asayişin mübariz keşikçiləri. "Şərq qapısı" qəz., 1976, 23 oktyabr.
73 Tarverdiyev A. Müqəssirlər cəzalandılar. "Şərq qapısı" qəz., Naxçıvan, 1944, 19 yanvar.
74 Məmmədov M. Daxili İşlər Nazirliyində yığıncaq keçirilmişdir. "Şərq qapısı" qəz., Naxçıvan. 2009, 10 yanvar.
75 Əbülhəsənov Y. Asayişin keşiyində. "Şərq qapısı" qəz., Naxçıvan, 1977, 11 noyabr.
76 Tağıyev Ə. Naxçıvan polisi bütün dövrlərdə ictimai asayişin keşiyində mərdliklə dayanmışdır. "Şərq qapısı" qəz., 2009, 17 yanvar.
77 Hüseynli İ. Dövlətçiliyin və asayişin keşiyində. "Azərbaycan" qəz., Bakı;2007, 4 iyul.
78 Hümbətov M. Azərbaycan polisi dövlətin mənafeyinin və insanların hüquqlarının keşiyində şərəflə dayanmışdır. "Azərbaycan" qəz., Bakı, 2008, 1 iyul.
79 Həsənəliyev Ş. Azərbaycan polisi sabitliyin, əmin-amanlığın və insan hüquqlarının keşiyindədir. "Şərq qapısı" qəz., 2007, 30 iyun.
80 İsayev M. Xalq öz nicatını dahi rəhbər Heydər Əliyevdə və onun apardığı müdrik daxili və xarici siyasətdə görür. "Şərq qapısı" qəz., Naxçıvan, 1996, 4 may.
81 Qasımov Q. Dövlət və dövlətçiliyi müdafiə etmək hər bir polis əməkdaşının müqəddəs vəzifəsidir. "Azərbaycan" qəz., Bakı, 1998, 3 iyul.
82 Qasımov A. Azərbaycan polisi vətənə, xalqına və Prezidentinə sadiqdir. "Azərbaycan" qəz., Bakı, 2005, 11 sentyabr.
83 Məmmədov Ə. Azərbaycan polisi daim xalqın, dövlətin və qanunun keşiyindədir. "Xalq qəzeti", Bakı, 2002, 1 iyul.
84 Məmmədov X. Bığlı Əhməd. "Mübariz keşikdə" qəz., Bakı, 1988, 10 noyabr.
85 Sadiqov İ. Döyüşçülər üçün. "Şərq qapısı" qəz., Naxçıvan, 1943, 7 noyabr.

yazıları verilmiş, həmin məqalələrdə bəzən bu və ya digər məsələlərlə əlaqədar bəsit elmi fikirlər də söylənilmişdir.

Ulu öndərimiz Heydər Əliyev demişdir ki, xalqımızın bütün dövrlərinin tarixi olduğu kimi, obyektiv öyrənilməli və yazılmalıdır. Tarixin üstündən xətt çəkmək olmaz. Bu mənada polisin və milisin tarixi də olduğu kimi yazılmalıdır. Odur ki, Azərbaycan, eləcə də Naxçıvan polisinin həqiqi tarixinin üzə çıxarılması tarixi zərurətdən irəli gəlmişdir.

Yuxarıda qeyd etdiklərimizdən görünür ki, bu günə kimi Naxçıvan polisinin tarixi xüsusi tədqiqat obyekti olmamışdır. Halbuki bu mövzu böyük elmi praktiki əhəmiyyət kəsb edir. Bütün bunlar müəllif tərəfindən bu mövzunun tədqiqat üçün seçməsinə səbəb olmuşdur. Onu da qeyd edək ki, Naxçıvan polisinin keçdiyi inkişaf yolunun tədqiqi və nəşri dissertasiyanın müəllifi ilə bağlıdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya bu vaxtadək Azərbaycan tarixşünaslığında tədqiq olunmamış bir mövzuya həsr olunduğu üçün orijinal və tam yenidir. Təqdim olunan dissertasiya işi bu sahədə olan boşluğu doldurmağa xidmət edir. Dissertasiyanın əsas elmi yeniliklərindən biri budur ki, Naxçıvan polisinin tarixi tariximizin bu vaxta qədər araşdırılmamış tərkib hissəsi kimi tədqiq olunmuş və elmi dövriyyəyə çox əhəmiyyətli məsələlər gətirilmişdir.

Tədqiqat işinin elmi yenilikləri aşağıdakılardan ibarətdir:

-Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Naxçıvanda hüquq-mühafizə orqanlarının yaranması və fəaliyyəti ilə bağlı ümumiləşdirici əsər hazırlanmışdır;

-Naxçıvanda hələ xanlıq dövründə naibliklər səviyyəsində mühafizə orqanlarının fəaliyyət göstərməsi müəyyənləşdirilmiş, 1828-ci ildə yaradılan polis və məhkəmə idarələrinin, 1840-cı ilin 10 aprelində Naxçıvanda, Şərur-Dərələyəzdə, Ordubadda rəsmi orqan kimi işə başlayan polis idarələrinin fəaliyyəti geniş tədqiq və təhlil olunmuşdur;

-I Nikolayın 21 mart 1828-ci il fərmanına əsasən ləğv olunmuş Naxçıvan və İrəvan xanlıqlarının ərazisində süni şəkildə "erməni vilayətinin" yaradılmasının səbəb və nəticələri bir sıra yönümlərdən təhlil edilmiş, çoxsaylı arxiv materialları əsasında yerli xanların, polisin ermənilərlə bağlı siyasətə münasibəti aydınlaşdırılmışdır;

-İlk dəfə elmi dövriyyəyə daxil edilən sənədlər əsasında milli zəmində baş verən hadisələrə çar məmurlarının, yerli polisin münasibətlərinə aydınlıq gətirilmiş, toqquşmalar zamanı azərbaycanlıların polis orqanlarından uzaqlaşdırılması, Naxçıvan qəzasının yeraltı sərvətlərinə yiyələnmək üçün rusların, ermənilərin, gürcülərin bura

axışması üçün çar hökumətinin apardığı planlı siyasətlə bağlı çoxlu yeni sənəd tədqiqata cəlb edilmişdir;

-Kəndli hərəkatının başçılarına qarşı çar hökumətinin şah xəfiyyəsi ilk əlbir işləməsinə dair çoxlu yeni material elmi dövriyyəyə daxil edilmiş, XIX və XX əsrin əvvəllərində, Azərbaycanın başqa bölgələrində olduğu kimi, Naxçıvanda da qaçaqçılıq hərəkatının vüsət tapmasının əsas səbəbinin iqtisadi çətinlik yox, işğala qarşı, milli istiqlal duyğuları ilə bağlı olduğu aydınlaşdırılmış, qaçaqların fəaliyyəti təhlilə cəlb edilmişdir;

-Erməni-müsəlman toqquşmaları zamanı yerli polisin fəaliyyətini təftiş etmək, bu qırğınlarda azərbaycanlı polisləri günahkar çıxarmaq üçün təftiş aparılmasının ermənilərə tapşırıldığı sənədlər əsasında tam müəyyən edilmişdir;

-Sənədlər əsasında müəyyən edilmişdir ki, milli qüvvələrin panislamist, pantürkist damğası ilə həbs üsulu hələ 1916-cı ildən işə salınıb, bu proses sonralar da davam etdirilib, çoxlu polis işçisi bu siyasətin qurbanına çevrilib;

-Müxtəlif dövrlərdə polisin adının dəyişdirilməsinin, fəaliyyətində fərqliliklərin aparılan siyasətlə bağlılığı aydınlaşdırılmış, bütün bunların elmi şərhi verilmişdir;

-1918-1920-ci illərdə, eləcə də 1988-ci ildən başlayaraq Naxçıvan polisinin milli mücadilərdə, torpaqlarımızın bütövlüyünün qorunmasında döyüşən orduya çevrilməsi ilə bağlı çoxlu yeni arxiv sənədləri aşkarlanmış və həmin sənədlər tədqiqata cəlb edilmişdir;

-1932-1940-cı illərdə gündəmə gətirilən "Keçili işi", "Milax işi" kimi məsələlərin Naxçıvan polisində yüksək vəzifəyə malik ermənilərin uydurması olduğu müəyyənləşdirilmiş, bu sahədə polisin fəaliyyətinə aydınlıq gətirilmişdir;

-Müharibə illərində (1941-1945) Naxçıvan milis (polis) işçilərinin alman-faşist işğalçılarına qarşı müxtəlif cəbhələrdə apardıqları qəhrəmanlıq mübarizəsi, arxa cəbhədə milis işçilərinin müdafiə fonduna, eləcə də ön cəbhədəki əsgərlərə etdikləri yardım və bayram sovqatları ilə bağlı sənədlər tədqiqata cəlb edilmişdir;

-Naxçıvan polisinin bərpa və quruculuq illərində baş vermiş bütün cinayətlərin vaxtında açılması və cinayətkarların ifşa edilməsi və bütün antipodlara qarşı mübarizə aparan polis əməkdaşlarının fəaliyyəti ilə bağlı yeni sənədlər elmi dövriyyəyə daxil edilmişdir;

-Müstəqillik dövründə dövlətçiliyin qorunub saxlanılmasında, demokratik cəmiyyət quruculuğunda, cinayətkarlığa qarşı mübarizədə

Naxçıvan polisinin fəaliyyəti ilə bağlı yeni sənədlər elmi dövriyyəyə daxil edilmişdir;

-Görkəmli dövlət xadimi, müdrik siyasətçi Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsində işləyərkən polis orqanlarının inkişafına göstərdiyi diqqət və qayğının, apardığı siyasətin konkret nəticələri ilə bağlı sənədlərin tədqiqi dissertasiya işinin ən əsas elmi yeniliyidir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat zamanı keçmiş metodoloji üsullardan fərqli olaraq tarixşünaslığımızın yeni milli-demokratik tədqiq və təhlil prinsiplərinə, Azərbaycançılıq ideologiyasına, tarixi-müqayisəli, qarşılaşdırma metodlarına, elmi və nəzəri ümumiləşdirmə üsullarına, sistemli, problematik təhlil metoduna üstünlük verilmişdir.

Tədqiqatda çoxsaylı yeni arxiv, mətbuat materiallarının tədqiq, təhlil və qiymətləndirmə üsullarından geniş istifadə edilmişdir.

Tədqiqat obyekti təsadüfən seçilməmişdir. Bu, həm bölgənin dərindən öyrənilməsi, həm də ərazinin tarixi-siyasi, mənəvi-psixoloji cəhətləri ilə bağlıdır.

Tədqiqatda tarixşünaslığın aktual problemləri əsas götürülmüş, müxtəlif sənədlər toplularından, normativ hüquqi aktlardan mənbə kimi istifadə olunmuşdur.

**Dissertasiyanın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya Naxçıvan polisinin inkişaf yolunu ilk dəfə üzə çıxaran yeni və orijinal tədqiqat əsəri olduğu üçün elmi-nəzəri və təcrübi cəhətdən də əhəmiyyətlidir.

Elmi tədqiqat işində ümumiləşdirilmiş çoxsaylı materiallar və irəli sürülən fikirlər tariximizin öyrənilməsi üçün çox dəyərlidir.

Tədqiqatdan gələcək araşdırmalarda mənbəşünaslıq baxımından geniş istifadə etmək mümkündür. Azərbaycan xalqına qarşı əsassız ərazi iddiaları irəli sürən ermənilərin fitnələrinin həqiqətə uyğun olmadığının sübutu üçün də dissertasiya çox əhəmiyyətlidir.

Dissertasiya polis orqanlarının fəaliyyətinin üzə çıxarılması yönümündən alimlərə, bu sahə ilə məşğul olan tədqiqatçılara elmi istiqamət verir.

Dissertasiya ali və orta məktəb dərsliklərinin, tədrislə bağlı metodik vəsaitlərin, tarixə dair tədqiqat əsərlərinin, ensiklopediyaların yazılmasında da xüsusi elmi əhəmiyyətə malikdir.

Tədqiqat işindən aidiyyatı orqanlar və mütəxəssislər də faydalana bilərlər.

**Dissertasiyanın aprobasiyası.** XIX-XX əsrlərdə Naxçıvanda hüquq-mühafizə orqanlarının keçdiyi inkişaf yolu müəllif tərəfindən uzun müddətdən bəri tədqiq edilsə də, müdafiəyə təqdim olunan dissertasiya 2005-2012-ci illər arasında Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarix" kafedrasında hazırlanıb tamamlanmışdır.

Tədqiqatın əsas müddəaları və nəticələri ilə əlaqədar müəllif tərəfindən AMEA-nın Naxçıvan bölməsində, Naxçıvan Dövlət Universitetində və digər müəssisələrdə keçirilən beynəlxalq və respublika miqyaslı elmi konfranslarda məruzələr edilmişdir.

Bununla yanaşı dissertasiya işinin müddəaları Naxçıvan Dövlət Universitetində tədris prosesində müəllifin özü tərəfindən mühazirə şəklində tələbələrə çatdırılmışdır.

Dissertasiyanın məzmunu ilə bağlı məsələlər müəllifin üç monoqrafiyasında, respublikamızda və xaricdə çap olunan məqalələrində və konfrans materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** problemin aktuallığı, predmeti, məqsəd və vəzifələri, tədqiqi tarixi, elmi yeniliyi, metodoloji əsası, elmi və təcrübi əhəmiyyəti, aprobasiyası və dissertasiyanın quruluşu haqqında geniş elmi məlumat verilmişdir.

Dissertasiyanın I fəsli **"Naxçıvanın Rusiya tərəfindən istila edilməsindən sonra Naxçıvanda qəza polisinin yaranması və fəaliyyəti (1828-1890-cı illər)"** adlanır. Bu fəsil "XIX əsrin əvvəllərində Naxçıvan xanlığında hüquq-mühafizə işinin təşkili" və " Naxçıvan qəza polisinin təşkili və fəaliyyəti" adlanan iki yarımfəsildən ibarətdir.

Türkmənçay müqaviləsi ilə Naxçıvan Rusiyaya tabe etdiriləndən sonra hələ 12 il də Naxçıvan xanlığı mövcud olmuşdur. Burada xanlıqlar dövründən ayrı-ayrı naibliklər yaradılmışdır. Həmin naibliklərdə darğalar fəaliyyət göstərirdi. Polis idarəsi 2 nəfərə etibar edilirdi. Onlardan biri darğa, ikincisi əsasbaşı (Extas başı) adlanırdı. Darğalara yüzbaşılar, onbaşılar tabe idilər. Darğalar qayda-qanun yaradır, xususilə bazarlara nəzarət edirdilər. Onlar bazarlarda qiymətləri təyin edir və baş vermiş mübahisələri yoluna qoyurdular.

Darğalara xan tərəfindən maaş verilmirdi. Maaş əvəzində onlar hər dükandan ayda gümüş pulla 15 qəpik almağa icazəli idilər. Darğalar ərzaq məhsullarını bazardan pulsuz alırdılar.

Digər polis rəisinin əsasbaşının vəzifəsinə şəhər və bazarın gecə qorunması daxil idi. Onlarda maiş almırdı. Dukanlarda gümüş pula 61 qəpik almaq hiququna malik idi.

Polis və mülki işlərlə bağlı xanın eşikağası adlı xüsusi məruzəçisi vardı. O, gələnləri qarşılayır və xanın hüzuruna aparırdı.

Bütün cinayət işlərinə xan özü baxır, tələb olunduqda axunda müraciət edirdi. Axundlar xana yox, dini hakimiyyətə tabe idilər.

Tədqiqat göstərir ki, Naxçıvanda müstəsna bir orqan kimi fəaliyyət göstərən polis və məhkəmədə ən çox mülki işlərə baxılmışdır.

Bu yarımfəsildə polisin və məhkəmənin fəaliyyətini əks etdirən çoxsaylı faktlar əsasında ümumiləşdirmələr aparılır. Qeyd olunur ki, bir qayda olaraq qəzaların idarəçiliyi Kəngərlilərdən olan naibliklərə tapşırılır.

I Nikolayın 21 mart 1828-ci il fərmanına əsasən ləğv olunmuş Naxçıvan və İrəvan xanlıqlarının ərazisində süni şəkildə "erməni vilayəti" yaradıldı. Bu isə bütün sahələrdə olduğu kimi, polisin fəaliyyətinə də ciddi təsir göstərdi. Ermənilərin köçürülməsi azərbaycanlıların narazılığını ən yüksək həddə çatdırır, qarışıqlıq yaranır.

Nəticədə 6949 ailə tərkibində 35560 nəfər köçürülür.[86] Sonrakı illərdə də köçürülmə davam edir. Bu köçürmə nəinki çar Rusiyası dövründə, həmçinin sovet dönəmində də ermənilərin rusların himayəsi ilə polis orqanlarında yüksək vəzifə tutmasına səbəb olur.

Ermənilər hər işdə Ehsan xana mane olmağa çalışırlar. Arxiv sənədlərində 1834-cü ilin 3 aprelindən 20 mayadək Naxçıvan şəhərində milli zəmində olan iğtişaşlardan danışılır. Məlum olur ki, günahkar ermənilər olsa da, təqsirkar azərbaycanlılar tutulur, ermənilər və çar məmurları axund Cəfərin şəhərdən çıxarılmasını tələb edirlər.

Naxçıvanda qəza Polis idarəsi 10 aprel 1840-cı ildə yaradılır, eyni zamanda Şərur, Dərələyəzdə, Naxçıvan və Ordubadda şəhər polis idarələri təşkil olunur[87].

Onlar quberniya rəhbərliyinin tabeçiliyində olub, əsas vəzifələrini yerinə yetirməklə yanaşı, xırda cinayət hadisələrində, müəyyən mənada, məhkəmə funksiyasını da yerinə yetirirdi. Şəhər təsərrüfatını da polis idarə edirdi.

Tədqiqat göstərir ki, yüksək vəzifələrdə rus, erməni, gürcülərlə yanaşı yüksək təhsil görmüş Kəngərli tayfasından olan şəxslər də çalışmışlar.

XIX əsrin 50-ci illərində dairə polis şöbələri ilə bağlı arxiv sənədlərindən aydın olur ki, mülk və əmlakla bağlı cinayət işləri çoxluq təşkil etmişdir.

Arxiv sənədlərində Naxçıvanın yeraltı sərvətləri və açılan mədənlərlə bağlı yerli sakinlərin şikayətləri də mühüm yer tutur. Bu şikayətlərlə bağlı istintaq işlərini aparanlar isə, əsasən, ruslar və ermənilərdir.

Tədqiqat göstərir ki, yerli sakinlərin şikayətlərinin böyük qismi onların ata-baba torpaqlarında açılan yataq və zavodlarla bağlıdır. Açılan həmin obyektlərə isə qeyri-azərbaycanlılar, daha çox ermənilər rəhbərlik edirlər.

Bu yarımfəsildə Naxçıvan qəza və şəhər polis orqanlarında qulluq etmiş II Kalbalı xan Ehsan xan oğlu Naxçıvanski, Nəzərəli xan Naxçıvanski, Mirzə Məmmədqulu Məşədi Novruz oğlu Novruzov, Məmməd bəy Əli bəy oğlu Vəzirov, Novruzağa Mahmudağa oğlu Kəngərlinski, Cəfər bəy Tahirov, Mehdi xan Ordubadski və başqalarının

---

[86] Шопен И. Исторический памятник состояния армянской области в эпоху её соединения к Российской империи. СПб, 1852, с. 636-642.

[87] E. Şahmar. Azərbaycan polisi. Bakı: Dünya, 1997, s. 285

həyatı, polis orqanlarında fəaliyyəti barədə danışılmış, təhlillər, ümumiləşdirmələr aparılmışdır.

Aydınlaşdırılmışdır ki, çar hökumətinin bölgədəki polislə bağlı siyasəti anti-azərbaycan xarakteri daşıması ilə səciyyələnir. Yüksək vəzifələrin yalnız qeyri-azərbaycanlılara həvalə edilməsi, ancaq rus məmurlarının zəmanət verdiyi azərbaycanlıların polisə işə qəbul olunması və s. bu siyasətin nəticəsi kimi nəzəri cəlb edir.

Dissertasiyanın II fəsli **"Naxçıvan polisi XIX əsrin sonları XX əsrin əvvəllərində (1891-1920-ci illər)"** adlanaır. Bu fəsil dörd yarımfəsildən ibarətdir. I yarımfəsildə XIX əsrin axırları, XX əarin əvvəllərində polis orqanlarının fəaliyyəti və kəndli hərəkatlarına (qaçaq hərəkarına) qarşı mübarizəsi məsələləri tədqiq olunmuşdur.

Bu yarımfəsildə polis idarəsinin nəzdində atlı polis kazak dəstələrinin fəaliyyəti, onların qəzada və mahalda asayişi qorumaqla yanaşı sərhəd zonalarında qaçaqmaçılığa qarşı mübarizə aparmaqdan ibarət idi. Polis kazak dəstələrinin saxlanması üçün lazimi dövlət binalarının olmaması üzündən hər bir qəza mahalda onlar üçün evlər, həyətlər, atların saxlanması üçün tövlələr və s. yardımçı binaların verilməsinə dair bir çox sənədlərə rast gəlirik ki, həmin sənədlərdən biri Ordubad şəhər polis idarəsinin rəisi P.Levitinski 24 may 1888-ci il tarixdə Mehdi bəy Hacıyevlə atlı polis kazak dəstəsi ilə bağlı imzaladığı müqavilədir.. Müqavilədə P.Levitinskinin xeyirinə ağır şərtlərin olması vəziyyəti olduğu kimi əks etdirir.[88]

Sənədlərdən aydın olur ki, XIX əsrin 70-ci illərinə nisbətən 90-cı illərdə Naxçıvan qəzasının polis idarələrində ştat vahidlərinin sayı xeyli artırılır. Əgər 1870-ci ildə polis ştatlarının sayı 109 olmuşdusa, 1880-cı ildə 197, 1890-cı ildə 212, 1900-cu ildə 316 olmuşdur.[89] Bu isə, ilk növbədə, regionda baş verəcək hadisələri qabaqlamaq məqsədi ilə bağlı idi.

Qaçaq hərəkatları, erməni-azərbaycanlı toqquşmaları, Cənubi Azərbaycandakı hadisələr bunu bir daha sübut edir.

Bu yarımfəsildə polis orqanlarında çalışmış Çingiz xan Kalbalıxanov haqqında ətraflı məlumat verilir, üzə çıxarılan yeni arxiv sənədlərinə əsasən ümumiləşdirmələr aparılır.

Görkəmli yazıçı Cəlil Məmmədquluzadə 1897-1901-ci illərdə polis orqanlarında çalışmışdır. Mirzə Cəlilin əlyazması, onun işdən azad edilməsi ilə bağlı əmr də xüsusi əhəmiyyət daşıyır.

---

[88] Nax. MRDA: f. 23, s. 1, iş 2195, v. 3-6.
[89] Yenə orada. iş 491, v. 21.

Məmməd Hüseyn Novruzov, Hüseynqulu bəy Xosrov oğlu Kəngərlinski, Bəhram xan Naxçıvanski, Nəzərəli xan Naxçıvanski, Bəhlul Vəli bəy oğlu Kəngərlinski və başqalarının polisdə işləməsinə dair arxiv sənədlərinə əsasən həmin dövrün bəzi hadisələrinə aydınlıq gətirilmişdir. Qaçaq hərəkatının səbəbləri izah olunmuş, qaçaq Nəbi ilə bağlı əldə olunmuş yeni arxiv sənədləri tədqiqata cəlb edilmişdir.[90] Naxçıvandan Nəbiyə qoşulmuş qaçaqlar (Hüseyn, Şah Hüseyn, Ağa Hüseyn, Məmmədhüseyn, Gülhüseyn, Rəcəbalı, Ağabala Tağı oğlu, Muxtar Abbas oğlu, Nəsir Kərbəlayı oğlu, Məmiş Dadaş oğlu, İsmayıl, Telli Qara qızı və b.) haqqında da danışılır, ümumiləşdirmələr aparılır. Cənubi Azərbaycandan olan qaçaqlarla bağlı (əvvəl ölüm cəzasına, sonra 20 il katorqa cəzasına məhkum edilmiş Musa Məhəmmədhəsən oğlu və b.) yeni sənədlər də bu fəsildə təqdim olunur.

Tədqiqat göstərir ki, acından ölməmək üçün dəstələrlə dağlara qaçan kəndlilər də soyğunçu, quldur, qaçaq elan edilir, onlara qarşı nizami qoşun göndərilir, kəndlilərə ağır işgəncələr verilirdi. Bu işdə polisin qüvvəsindən də istifadə olunurdu.

Bu yarımfəsildə Keçili, Külüs, Tivi, Üstüpü, Haçaparax və s. yerlərdə baş verən hadisələrdən bəhs olunur. Partizan müharibəsi xarakteri alan qaçaq hərəkatı ilə bağlı İrəvan qubernatoru 1907-ci ilin 27 sentyabrında Qafqaz canişini Vorontsov-Daşkova yazmışdır ki, qaçaq dəstələrinin məhv edilməsində ən çətin bölgə Naxçıvan qəzasıdır. Bu qaçaqlar, əsasən, azərbaycanlılardan ibarətdir.[91]

Məhz buna görə də Naxçıvan, Culfa, Ordubad qəzalarında polis mühafizə dəstələrinin sayı artırılır.

1905-ci ildə Naxçıvan şəhər gəlirindən hərbi polis xidmətlərinə 6189 manat, 1906-cı ildə 10730 manat xərclənmişdirsə, 1907-ci ildə həmin məqsədə 28232 manat sərf edilmişdir. Halbuki maarif üçün 1680 manat, tibb işləri üçün 1070 manat buraxılmışdır.[92]

Tədqiqat göstərir ki, Cənubi Azərbaycana-Səttarxana köməyə gedənlərin qarşısını almaq üçün çar hökuməti bütün imkanlardan istifadə etmiş, milli məsələlərin, istiqlal duyğularının əhəmiyyətli dərəcədə nəzərə çarpdığı qaçaq hərəkatına qarşı mübarizədə çar hökuməti şah rejimi ilə əlbirlik göstərmişdir. İ.D.Şirinkina xüsusi göstəriş vermişdir ki, Şərur və Naxçıvan qəzalarında sərhəd boyu mühafizə dəstələri möhkəmləndirilsin,

---

[90] Nax. MRDA: f. 582, s. 1, iş 27, v. 1-13.
[91] Yenə orada. f. 582, s. 1, iş 26, v. 99.
[92] Yenə orada. v. 100.

kəndlilərin Cənubi Azərbaycana keçib Səttərxana köməyə getməsinə yol verilməsin. 25 noyabr 1908-ci il tarixdə canişin özü qəza rəisinə tapşırmışdır ki, Culfa körpüsündən etibarsız adamlar buraxılmasın, ziyarət adı ilə İrana gedən gənclərə pasport verilməsin. İcazə ilə gedən şəxslər də diqqətlə yoxlandıqdan sonra onların üzərinə ciddi nəzarət qoyulsun.[93]

Lakin polis idarələri bu qəti tapşırığın öhdəsindən gələ bilmirlər. Naxçıvan, Culfa, Şahtaxtı, Qaraçuğ, Alışar postlarından silahlı dəstələr keçib, Səttərxana köməyə gedirdilər. Naxçıvan qəzasında nəinki ayrı-ayrı şəxslərin, bütün əhalinin itaətsizliyinə dair arxiv sənədlərində məlumatlar vardır. Çar hökuməti bu milli azadlıq hərəkatını yatırmaq üçün hər cür fitnəkarlığa, böhtanlara və qırğınlara əl atırdı.

Keçili sakini, qaçaq Kəlba Teymurun dəstəsinə qarşı Naxçıvan, Şərur-Dərələyəz, Zəngəzur qəzalarının polis dəstələri, sərhəd mühafizəçiləri mübarizə aparırdılar. Kəlba Teymur çar və şah xəfiyyələrinin əli ilə İranda öldürülür[94].

Bu yarımfəsildə Murtuz Kərbəlayi Nuru oğlu, Mirzə Tağı oğlu Həmzə, tivili Süleyman və başqalarının qaçaq dəstələri haqqında yeni məlumatlar verilir.

II yarımfəsildə XX əsrin əvvəllərində erməni – azərbaycanlı toqquşmaları, Naxçıvanda demokratik hərəkatın başlanması və polis orqanlarının bu hərəkata qarşı mübarizəsi məsələləri tədqiq olunmuşdur. Bu yarımfıəsildə 1905-1907-ci illərdə Naxçıvanda ermənilərlə azərbaycanlılar arasında baş verən toqquşmaların əsasının planlı şəkildə daha əvvəllər hazırlanması göstərilir. Ordubad rus hərbi hissəsinin komandiri kapitan Prixniyan 20 may 1905-ci il tarixdə Ali Baş Ştaba göndərdiyi raportda yazırdı: “Tivi kəndində xalqlar arasında baş verən hərc-mərcliklə əlaqədar kömək məqsədi ilə oraya 488 nəfər əsgər və 33 zabit göndərildi”.[95] Prixniyanın milliyətcə erməni olması ora kimin köməyinə əsgəri qüvvə göndərilməsinin sübutudur.

Qafqaz atıcı batalyonu komandirinin 18 iyunda Baş Ştaba göndərdiyi raportda isə əsgərlərin Zeynəddin kəndində 20-dən çox müsəlmanı öldürdüyü, Nursda 4 müsəlmanın öldürülməsi, 11 nəfərin yaralanması barədə məlumat verilir.[96] Qırğınlar Ordubad, Cəhri,

---

[93] Nax. MRDA: f. 582, s. 1, iş 26, v. 101.
[94] Yenə orada. f. 23, s. 1, iş 1276, v. 9.
[95] Yenə orada. f. 314, s. 5[a], iş 83, v. 34.
[96] Yenə orada. f. 314 s. 5[a]. v. 40-41.

Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və başqa yaşayış yerlərini əhatə
edir. 1905-ci ilin 26 noyabrında Naxçıvan şəhərindəki bazarı qarət edib, sonra yandırırlar. Nəticədə 85 dükan, 75 anbar və başqa tikililər yanıb məhv olur[97].

Dəhşətlisi burasıdır ki, 1906-cı ilin mart ayında Naxçıvan qəza polis idarəsinin fəaliyyəti ilə bağlı təftiş aparmış İrəvan quberniya idarəsinin mülki müşaviri Ter-Saakov bu qırğınlarda başlıca günahları müsəlmanların üzərinə yıxmış, hətta polis işçilərindən bununla bağlı izahatlar almışdır.[98]

Bundan sonra isə çar polis orqanları tərəfindən qanunsuz olaraq müsəlmanlar həbs edilirlər.

20 fevral 1906-cı il tarixdə Qafqaz canişinliyində bu məsələ müzakirə edilmiş, canişinin köməkçisi yeni qırğınlar üçün istiqamət vermişdir. Nəticədə Küznüt, Çeşməbasar, Şıxmahmud, Yamxana, Yarımca, Cəhri, Şurut, Əbrəqunus, Nurs, Arınc, Ulya-Noraşen, Ələkli, Aşağı Daşarx kəndləri yandırılır.

Tədqiqat göstərir ki, bu qırğınlar İrəvan qubernatoru Baranov və İrəvan şəhər qlavası Ağamanov tərəfindən tərədilmişdir. Bütün bunlara qarşı genişlənən demokratik hərəkatın başında M.S.Ordubadi, Ə.Qəmküsar, E.Sultanov kimi qabaqcıl ziyalılar dururdular.

Bu yarımfəsildə "Hümmət" təşkilatının Naxçıvan qrupundan, həmin qrupun üzvləri M.Bektaşev, M.Mirheydərzadə, N.Şeyxov, H.Məmmədov, R.Nəcəfov, Ə.Əzimov və başqalarının fəaliyyətindən, polisin bütün bu məsələlərdə mövqeyindən danışılır. Eləcə də "Mücahidlər" təşkilatının Naxçıvan şöbəsinin gördüyü işlər nəzər-diqqəti cəlb edir. Hər iki təşkilatın üzvləri Naxçıvan bölgəsində iş görməklə kifayətlənmir, Cənubi Azərbaycanla sıx əlaqə saxlayır, bütün sahələrdə fəallıq göstərirdilər.

Rusların Ərzurum qalasını işğal etməsi, əldə olunan sənədlərdən görünür ki, Naxçıvanda böyük qalmaqala, çaxnaşmaya səbəb olur. Bu məsələ ilə bağlı keçirilən gizli yığıncaqlarda hətta polis işçilərinin iştirak etməsini (məsələn, 2-ci sahənin pristavı Kəngərlinski və b.) həmin sənədlərdəki informasiyalar sübut edir. Naxçıvanda rus qüvvələrinə qarşı partizan hərəkatının təşkil edilməsinə dair arxiv sənədləri də vardır.

Naxçıvanda kütləvi həbslər keçirilir, demokratik hərəkatın iştirakçılarından böyük bir qismi tutulur.

---

[97] Nax. MRDA: f. 26, s. 1, iş 25, v. 78.
[98] Yenə orada. f. 23 m, s. 1, iş 2907, v. 1-2.

Göründüyü kimi, polisin fəaliyyətini bu dövrdə bölgədə baş verən hadisələr şərtləndirir.

Bu yarımfəsildə bütün bunlar barədə məlumatlar verilir, faktlarla əsaslandırılır, ümumiləşdirmələr, müqayisələr aparılır.

**“Naxçıvan bölgəsində ictimai-siyasi vəziyyət, Andranik Ozanyanın Naxçıvan bölgəsinə təcavüzü və yerli əhalinin polislə birgə mübarizəsi”** adlanan üçüncü yarımfəsildə həmin dövrdə baş verən hadisələr araşdırılmış, Naxçıvan polisinin bu hadisələrdəki roluna aydınlıq gətirilmişdir.

Çar hökuməti yıxıldıqdan sonra vəziyyət xeyli dəyişir. Əlahiddə Qafqaz Komitəsi öz əməkdaşı A.A.Kalujskini Naxçıvana göndərir. Baxşəli ağa Şahtaxtinski müvəqqəti olaraq Əlahiddə Qafqaz Komitəsinin Naxçıvan qəzası üzrə müvəkkili təyin edilir.[99] B.A.Şahtaxtinskinin 10 oktyabr 1917-ci il tarixli teleqramında vəziyyət belə səciyyələndirilir: “Qəza polis komissarı istefaya çıxıb və azad olunmasını gözləyir. Mövcud icraiyyə komitələri fəaliyyətsiz dayanmış, istefa verənlər nə işdən çıxarılır, nə də onlardan istifadə olunur. Bu həftə çoxlu oğurluq və ölüm var”.[100]

Qabaqcıl ziyalılardan Əziz Şərif 1917-ci ilin axırlarında özü başda olmaqla 45 nəfərdən ibarət şura və 59 nəfərdən ibarət “Qırmızı qvardiya” təşkil edir.[101] “Qırmızı qvardiya”nın tərkibində çar hökuməti dövründə polis sistemində işləyənlər də var idi.

Tiflis erməni hərbi ittifaqı isə Xazaryanı Naxçıvana göndərir və onun rəhbərliyi ilə Naxçıvanda erməni “Milli Komitəsi” yaradılır. Bu qondarma komitəyə qarşı Nehrəmdə Kərbəlayı Abdulla Adıgözəlovun başçılığı ilə üsyan qalxır. Əziz Şərif 1918-ci ilin 10 yanvarında və 1 fevralında Zaqafqaziya komissarlığına teleqramlar göndərir, silah göndərilməsini xahiş edir.

Culfadakı rus qoşunlarının cəbhəxanası daşnaklar tərəfindən ələ keçirilmişdi. Kərbəlayı Abdulla Adıgözəlov və silahdaşları öldürülür. Həm daşnaklara, həm də bolşevik işğalçılarına qarşı mübarizə aparan gənc Azərbaycan hökuməti Naxçıvanın və Zəngəzurun müdafiəsində ciddi çətinliklərlə qarşılaşdı. Naxçıvan blokada vəziyyətinə düşmüşdü. Naxçıvan Türkiyənin qardaşlıq köməyinə arxalanaraq silahlı erməni quldurlarına qarşı mətanətlə mübarizə aparırdı.

---

99 Nax. MRDA: f. 314, s. 5[a], iş 63, v. 46.
100 GRMDA: f. 1472, s. 1, iş 462, v. 77.
101 Nax. MRDA: f. 574, s. 1, iş 14, v. 21.

1918-ci ilin 21-23 martında ermənilər Naxçıvan şəhərinin Xoşlu, Zakiyyə və Əlixanlı məhəllələrinə hücumlar edirlər. Bununla əlaqədar martın 26-da Naxçıvan Müsəlman Milli Komitəsinin iclası olur. Hərbi nazir Rəhim xan Naxçıvanski, onun müavini Hacı Mehdi Bağırov və digərləri çıxış edirlər. Martın 31-də ermənilər Qaraxanbəyli kəndində 25 nəfər müsəlmanı qətlə yetirirlər.

Bu çətin anlarda qeyri millətlərdən olan kiçik və yüksək rütbəli polis məmurları istefa verərək Naxçıvandan çıxıb getməkdə idilər. Aprelin 20-də azərbaycanlı və erməni rəhbərlərinin iştirakı ilə iclas olur, Naxçıvan şəhərində bir nəfər müsəlman (Abbasqulu bəy Tahirov) və bir nəfər erməni (Ruben Babaxanov) polis rəisi təyin olunur. Bunun da nəticəsi olmur. Andranikin, Nijdenin, Dronun, Gibbonun, Doluxanovun və başqalarının quldur dəstələri Naxçıvan, Şərur-Dərələyəz, Əlincə və Gilançay boyunca 50-dən artıq kəndi qarət edir, əhalini qılıncdan keçirirlər. Andranikin 4 min nəfərlik qoşunu Yaycı, Aşağı Aza və Kərimqulu-Dizə kəndlərinə hücum edir.

Nehrəmdə 3 günlük döyüşdə Andranik xeyli tələfat verib, geri çəkilir. Qəza polis komissarı Məhəmmədəli xan Naxçıvanski, şəhər polis komissarı Abbasqulu bəy Tahirov Milli Komitənin yığıncağında məlumat verirlər. Polis komissarlığı kəndində təşkil olunmuş qırmızı qvardiya üzvlərinə tapşırıq verilir ki, səngərlər qurulsun və şəhərin müdafiəsi üçün lazımi tədbirlər görülsün.

İyunun axırlarında Andranikin qoşunu Xanağa kəndinin bütün əhalisini qətlə yetirir, sağ qalan 2 nəfər iyul ayının 1-də Naxçıvana gələrək qəza polis komissarı Məmmədəli xan Naxçıvanski ilə görüşürlər.

Naxçıvan ikinci mahalın komissarı Məşədi Hüseyn Salmanova polis məmuru Məşədi Abbas Zalovun məktubunda yerli ermənilər tərəfindən 5 nəfər azərbaycanlının oğurlanması, 14 nəfərin öldürülməsi, Kolanı və Gecəzur kəndlərinin qarəti barədə məlumat verilir.

İyul ayının 30-da Andranik Naxçıvan şəhərinə hücum edir. Ermənilərlə döyüşə polis əməkdaşları ilə birlikdə bütün şəhər əhalisi qalxır. Qara Bəkir paşanın başçılığı ilə 11-ci, Xəlil paşanın başçılığı ilə 9-cu diviziyalar köməyə gəldikdə Andranik Zəngəzura qaçır. Qaçarkən Sirab, Qaraqala, Zeynəddin, Qahab, Ərəzin, Camaldın, Qızılca, Kırna, Bənəniyar, Saltaq, Xoşkeşin, Xanağa, Düylün, Gilançay, Üstüpü, Dizə, Biləv, Behrud, Tivi və b. kəndləri dağıtmış, əhalisini qətlə yetirmişdir.

Naxçıvanda bələdiyyə və onun jandarma polis ədliyyə idarələri yaradılır. Məhəmmədəli xan Naxçıvanski polis rəisi, Qəni bəy Vəzirov isə müavin təyin olunur.

Yerli milli orduya cavanların cəlb edilməsi işi polis rəisi Məmmədəli xan Naxçıvanskiyə tapşırılır. Onun səyi ilə təkcə Nehrəm, Qaraçuq və Bulqan kəndlərindən 200-ə qədər gənc orduya cəlb olunur.

Araz-Türk Respublikası dövründə yaradılan Daxili İşlər Nazirliyinə rəhbərlik Bəhram xan Naxçıvanskiyə tapşırılır. Respublika ərazisində polis idarələri və onların sahə şöbələri fəaliyyətə başlayır.

**"Araz-Türk Respublikası dövründə və respublikanın ləğvindən sonra ictimai-siyasi vəziyyət"** adlanan dördüncü yarımfəsildə türk qoşunlarının gedişindən sonra Naxçıvanda baş verən hadisələrdən bəhs olunur. Çünki bu hadisələr Naxçıvan polisinin tarixində çox əhəmiyyətlidir.

Vedibasar və Məlistan rayonlarındakı vəziyyətlə bağlı müvəkkil Məhərrəm Əliyevin Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Sədri F.Xoyskiyə raportunda qeyd edilir ki, İrəvan qəzasının Vedibasar və Məlistan rayonları Azərbaycanın ayrılmaz hissəsidir və bura heç kimə güzəştə gedilə bilməz.[102]

Erməni qoşunları Şərura hücum edərkən polkovnik Kalbalı xan və Daxili İşlər Naziri Bəhram xan Naxçıvanskinin başçılığı ilə mütəşəkkil böyük bir dəstə ora göndərilir.

1919-cu ilin əvvəllərində ermənilərin fitvası ilə Naxçıvan İngilislər tərəfindən işğal edilir. İyun ayında ingilis-erməni təcavüzkarlığına qarşı Naxçıvan şəhərində, Şərur qəzasında üsyan baş verir. Varsamyanın Naxçıvanda qubernator olduğu qısa bir dövrdə Naxçıvanda Daxili İşlər Nazirliyi və polis idarələrinin fəaliyyəti, demək olar ki, dayandırılmışdı, ingilislərin köməyi ilə Varsamyan ermənilərdən ibarət polis şöbələri təşkil etmişdi. Naxçıvan əyalət polis komissarı təyin edilmiş Çilingərovun Ermənistan Daxili İşlər nazirinə 1919-cu ilin iyun ayında göndərdiyi məktubdan[103] məlum olur ki, qondarma polis şöbələrində özbaşınalıq, hərc-mərclik hökm sürmüş, azərbaycanlılara qarşı törədilən bütün cinayətləri bu şöbələr planlı şəkildə hazırlamışlar.

Çox qısa müddətdə erməni daşnak hökuməti qovulur. Zaqafqaziya Ali Komissarı Vilyam Haskel Bakıya gəlir, bəyan edir ki, Naxçıvan və Şərur-Dərələyəz rayonları "bitərəf zona" elan olunmalıdır.

Bu qərar Naxçıvan və Şərur-Dərələyəz əhalisi tərəfindən çox həyəcanla qarşılanır, Əli Səbri Qasımov səlahiyyətli nümayəndə kimi Haskelin yanına göndərilir. Əli Səbri Haskelə deyir: "Biz bu və ya digər hökumət tabeliyini qəbul etməyəcəyik. Təyin-müqəddərat istəyirik. Buna

---

[102] Nax. MRDA: f. 314, s. 5[a], iş 71, v. 1-2.
[103] Yenə orada. iş 3, v. 42.

bizim haqqımız var. Biz bunu kiməsə güzəştə getməyəcəyik. Belə bir halda mənim xalqım memarandumda xatırlatdığı kimi, özünü haqlı bilir ki, əldə silah namusla ölsün. Xalq öz gücü ilə azadlıq əldə edib və qəsbkarı qovmuşdur. Özünə azadlıq əldə edən xalq hətta doğma Azərbaycan hökumətinə də ixtiyar vermir ki, onun xəbəri olmadan onun taleyini həll etsin”.[104]

Amerikan Edmond Devi Naxçıvana general-qubernator təyin olunur. Arxiv sənədlərində göstərilir: “Naxçıvan xalqı faktiki surətdə amerikalı qubernator E.Devini bitərəf zonada təyin olunduğu vəzifəni icra etməyə buraxmadılar. O, Naxçıvanda heç bir hakimiyyətə malik olmadığından sadəcə bir nümayəndə kimi qaldı”.[105]

1919-cu ilin axırlarından 1920-ci ilin iyul ayına kimi erməni qoşunları Naxçıvanın bir çox yaşayış məntəqələrinə hücum etmiş, qanlı qırğınlar törətmişdir. Abbasqulu bəy Şadlinskinin,[106] Hacı Təhmasib Şadlinskinin[107] teleqramları həmin faciələrlə bağlıdır. Ermənilər sərhəd zonalarına 6630 nəfər piyada, 1130 nəfər süvari, 66 pulemyot, 26 top gətirirlər. 1920-ci il iyulun əvvəllərində Sədərək kəndi və Şərur işğal edilir. A.Şadlinskinin təşkil etdiyi “Qırmızı tabor” və “Naxçıvan polku”-nun qəhrəmanlığı nəticəsində 1920-ci ilin noyabr ayının axırlarında və dekabrın əvvəllərində Naxçıvan, Şərur və Ordubad qəzaları erməni işğalçılarından təmizlənir.

Bu döyüşlərdə polisdə işləmiş Bəhram xan Naxçıvanski, Abbasqulu Tahirov, Məmmədəli xan Naxçıvanski, Məşədi Hüseyn Salmanov, Məşədi Abdul Zalov, Qəni bəy Vəzirov, Hacı Xəlil İmanov, Qasım Hüseynov, Mirəli Seyidov, Abbas bəy Allahverdibəyov və onlarla başqaları əsl qəhrəmanlıqlar göstərmişlər.

Dissertasiyanın üçüncü fəsli **Naxçıvan polisinin 1920-1987-ci illərdəki fəaliyyətinin tədqiqinə** həsr olunmuşdur. III fəslin birinci yarımfəslində Naxçıvan qəzasında sovet hakimiyyəti qurulduqdan sonra polisin yaradılması və dövlətin möhkəmləndirilməsində onun rolu məsələləri araşdırılır.

1920-1940-cı illər Naxçıvan əhalisi üçün də gərgin, ziddiyyətli hadisələrlə səciyyəvi olmuşdur. XI rus ordusu Naxçıvanı işğal edir, 1920-ci ilin 28 iyulunda burada sovet hakimiyyəti elan olunur. Naxçıvan İnqilab

---

104 Nax. MRDA: f. 582, s. 1, iş 43, v. 45.
105 Yenə orada. v. 48.
106 Yenə orda: f. 314, s. 5[a], iş 72, v. 17.
107 Yenə orada. v. 18.

Komitəsinin 10 oktyabr 1920-ci il tarixli qərarı ilə daxili işlər şöbəsi yaradılır. Polis fəhlə-kəndli milisi adlandırılır. Murtuz Hacıyev milis şöbəsinə rəis təyin olunur.[108] Ona tapşırılır ki, Naxçıvanın qəza və dairələrində milis şöbələrini təşkil etsin. Milisin şəxsi heyətinin təşkilati cəhətcə möhkəmləndirilməsi üçün tədbirlər görülür. 1 ay ərzində (11 noyabrdan 11 dekabradək) Naxçıvan, Şərur qəzalarında, Ordubadda, Tumbul, Cəhri, Parağa, Nərimanabad, Culfa, Baş Noraşen, Şahbuz, Əbrəqunus, Qıvraq icraiyyə komitələri nəzdində milis şöbələri yaradılır. S.Əbilov, H.Cabbarov, M.Sarmazbəyov, Y.Nəsirxanov, A.Qasımov, İ.İsmayılov, H.Qasımov, N.Şahtaxtinski, M.Tarquliyev milis şöbələrinə rəis təyin edilirlər.[109]

Noyabrın 17-də İnqilab Komitəsinin nəzdində olan Daxili işlər şöbəsinin iclasında Naxçıvan və Ordubad şəhər milis şöbələrinin ştat vahidləri nəzərdən keçirilir. Naxçıvan şəhərində 37 nəfər (1 rəis, 1 rəis müavini, 2 baş milis, 33 kiçik milis), Ordubad şəhər milis şöbəsinin ştat vahidi 17 nəfər olmaqla (1 rəis, 2 baş milis, 14 kiçik milis işçisi) təsdiq edilir.[110]

Zəngəzurdan, Dərələyəzdən, Vedibasardan, İrandan və b. yerlərdən Naxçıvana gəlmiş minlərlə qaçqın bölgədəki onsuz da gərgin olan vəziyyəti daha da ağırlaşdırmışdı. Daxili işlər şöbələri bir sıra vəzifələri həyata keçirirlər. Şərur qəzası hələ də daşnakların əlində idi. İnqilab komitəsi qəzanı ermənilərdən azad etmək, əmin-amanlıq yaratmaq üçün noyabrın 28-də xalq milisi yaratmağı qərara alır. Xalq milisinin və “Qırmızı tabor”un gücü ilə Şərur azad edilir, rayonda milis şöbəsi yaradılır.[111]

1921-ci ilin yanvar ayında Naxçıvan qəza fəhlə-kəndli baş Milis İdarəsi yaradılır. Salman Əbilov rəis, Yunus Naxçıvanski rəis müavini təyin edilir.[112]

Naxçıvan ölkə İnqilab Komitəsi 11 aprel 1921-ci il tarixli qərarı ilə S.Əliyevi Daxili İşlər Komissarı təyin edir.

Bəzi qüvvələr, xüsusən də İran ərazisindən sərhəddi keçən silahlı kürd dəstələri gərgin vəziyyətdən istifadə edir, kəndləri talayırdılar. Martın 3-ə keçən gecə 25 nəfər iranlı kürd Püsyan kəndinə hücum edərək 14 baş iribuynuzlu, 2 ulaq, 1 at və 40 baş xırdabuynuzlu aparmışdı.[113]

---

[108] Nax. MRDA: f. 63, s. 1, iş 1, v. 9-10.
[109] Yenə orada. f. 63. iş 4, v. 8-13.
[110] Yenə orda. f. 63. s. 1 iş. 4. v.16.
[111] Yenə orda. f. 63, s. 1, iş 1, v.11.
[112] Yenə orda. f. 314, s. 5, iş 28, v.38.
[113] Yenə orda. f. 63, s. 1, iş 1, v.12.

Bu yarımfəsildə arxiv sənədlərinə əsasən çoxlu bu cür hadisələrdən söz açılır.

Bu döyüşlərdə xalq milisi rəşadət göstərir, yaralananlar olur. Təkcə 1921-ci ilin mart
ayında İrandan keçən kürd dəstələri ilə bağlı oğurluğa görə 28, dalaşmaya görə 7, təhqir etmək və öz həddini aşmaya görə 2, sərxoşluğa görə 3, qaçaqmalçılığa və xarici valyuta alverinə görə 8 protokol tərtib edilmiş, 775 manat 50 qəpik cərimə Daxili İşlər Komissarlığının kassasına təhvil verilmişdir.[114]

Verilmiş təlimatı əsas götürən milis əməkdaşları asayişin bərpasına çalışır, qaçaqmalçılığa, quldurluğa, hər cür neqativ hallara qarşı kəskin mübarizə aparırdılar. Quldurlarla mübarizə aparmaq üçün fövqəladə üçlük komissiyası yaradılır.

Quldurlarla döyüşdə milis rəisi İ.Həsənzadə və bir polis işçisi öldürülür.

İlk illərdə xalqına sədaqətlə xidmət edən milis işçiləri ilə yanaşı bu şərəfli adı doğrultmayan, öz mənafeyini güdən, rejimin "əmir qulu" kimi fəaliyyət göstərənlər də olmuşdur.

29 mart 1922-ci il tarixdə Daxili İşlər Komissarlığının qərarı ilə yaradılmış "Milislərin təmizlənməsi komissiyası" muxtar respublika üzrə 133 milis işçisinin şəxsi işinə baxmış, 49 nəfəri sistemdən uzaqlaşdırmışdır.[115] Sonralar sovet rejiminin iş üsullarından birinə çevrilən belə xüsusi komissiyaların yaradılmasının mənfi tərəfləri də özünü göstərdi. 1925-ci ilin aprelində belə komissiyalar həm də layiqli, milli qüvvələrin ləkələnməsində əsas vasitəyə çevrildi. Məsələn, yaradılmış xüsusi komissiyanın hazırladığı "qara siyahı"da 50 rəhbər işçinin adı yazılmışdı, bunlardan 48 nəfər azərbaycanlı cəzalandırıldı. "Qara siyahı"da adı çəkilən 2 erməni isə "rəhbərliyin sərəncamına göndərildi". Qısa müddətdə Naxçıvanda 4 nəfər heç bir məhkəmə qərarı olmadan güllələndi, qalanları müxtəlif müddətlərdə azadlıqdan məhrumetmə cəzasına məhkum olundu. Çar hökuməti zamanı çinovnik, qorodovoy, kargüzar, uryadnik və s. vəzifələrdə işləmiş Yunis Naxçıvanski, Mahmud Şirəlizadə, Teymur Səfiyev, Abbasqulu Tahirov, Bəylər ağa Kəngərli, Məmməd ağa Kəngərli və başqaları, AXC dövründə pristav işləməsi bəhanə gətirilərək Qasımağa Kəngərli, şəhər milis rəisi işləyən Muradxan Naxçıvanski xüsusi komissiyanın qərarı ilə cəzalandırıldılar. Sovet rejiminin bir sıra məlum

---

[114] Nax. MRDA: f. 235, s. 1, iş 2, v. 2.
[115] Yenə orda. f.235, s. 1, iş 18, v. 1-3.

səbəblərlə bağlı, həm də naxçıvanlıları öz itaətkar quluna çevirmək məqsədi ilə əvvəllər də gördüyü tədbirlər rus tədqiqatçısı R.İvanovun araşdırmalarından yuxarıda gətirdiyimiz faktlarda, eləcə də aşağıdakı cümlələrdə görünür: "İ.V.Stalin yazırdı: "Sovet Azərbaycanı öz xoşu ilə mübahisəli əyalətlərdən imtina edir və Sovet Ermənistanına Zəngəzuru, Naxçıvanı, Dağlıq Qarabağı rəsmən verməsini bildirir". Amma Naxçıvan, Stalinin hökmünün əksinə olaraq, üzüyolalıq etmədi"[116].

Bu ağır günləri bütün naxçıvanlılar kimi, milis sistemində çalışan namuslu işçilər də yaşamalı oldu.

1922-ci il mayın 9-da Naxçıvan Baş Milis idarəsinin nəzdində cinayət axtarış idarəsinin yaradılması haqqında qərar qəbul edilir.

Həmin ilin yeni ştat smetası üzrə Naxçıvan Daxili İşlər şöbəsində 13 nəfər ştat vahidi vardı. Naxçıvan qəza Milis İdarəsində 15 nəfər, Tumbul dairəsində 13 nəfər, Cəhri dairəsində 11 nəfər, Əbrəqunus dairəsində 9 nəfər, Culfa dairəsində 10 nəfər, Naxçıvan şəhər Milis şöbəsində 32 nəfər, Ordubad dairəsində 22 nəfər, Şərur qəza Milis İdarəsində 16 nəfər, Şərur I məntəqəsində 8 nəfər, II məntəqəsində 8 nəfər, III məntəqəsində 9 nəfər, o cümlədən gözətçi məntəqəsi olan Qazançıda 4 nəfər, Vənənddə 8 nəfər, Çənnəbdə 8 nəfər, Dəstədə 4 nəfər, Sədərək gözətçi məntəqəsində 3 nəfər milis ştatı olmaqla respublika üzrə 225 nəfərdən ibarət ştat vahidi təsdiq edilmişdir.[117]

Bu yarımfəsildə Culfa, Naxçıvan, Şərur, Ordubad milis şöbələrində rəhbər vəzifələrdə çalışan milis işçiləri haqqında məlumat verilir. Göstərdikləri fədakarlığa görə 13 sentyabr 1925-ci il tarixdə bir qrup milis işçisi mükafatlandırılır.

Naxçıvanda fəhlə-kəndli milisinin 5-ci ildönümü münasibətilə Naxçıvan Baş Milis İdarəsinə göndərilən təbrik teleqramları milisə bəslənilən etimadı ifadə edir. Bu dövrdə milis orqanlarında çalışanların, demək olar ki, 80 faizinin ibtidai təhsili belə yox idi. Buna görə də milis işçiləri üçün savad kursları açılır. 1923-1924-cü illərdə 32 nəfər, 1926-1927-ci illərdə isə 69 nəfər milis işçisi həmin kursları bitirir.[118]

SSRİ Xalq Komissarları Sovetinin 2 fevral 1930-cu il tarixli "Mülkədarlıqla mübarizə işinin təşkili və bütün SSRİ ərazisində kolxozların təşkili" barədə qərarı çoxlu narazılıqlara şərait yaratdı. Şahbuz

---

[116] Иванов Р.Н. Нашествие печалная быль о бесчинствах болшевиков на советской земле древнего Нахчывана М: «Герой Отечества» 2009, с. 289-302.
[117] Nax. MRDA: f. 235, s. 1, iş 18, v. 1-2.
[118] Yenə orda. f. 235, s. 1, iş 18, v. 1-2.

rayonunun Keçili, Külüs, Biçənək, Tırkeş, Sələsüz, Aşağı Qışlaq, Şərur rayonunun Dəmirçi, Yengicə, Mahmudkənd, Püsyan, Culfa rayonunun Milax, Ərəfsə və b. kəndlərində üsyanlar baş verir. Qaçaq hərəkatının başında Kərbalayı Süleyman, Kərbalayı İsmayıl, Quşdan, Səlim bəy, Kərbəlayı Yəhya, Məşədi İsmayıl və başqaları dururdu, onlara qarşı mübarizə aparmaq üçün Bakıdan da milis işçiləri göndərilir. “Kim kimi” məsələsinin həlledici olduğu bu hadisələrin ziddiyyətləri, çətinliyi çox təbii idi. Qardaşı qardaşa qarşı qaldırmışdılar. 1930-cu ilin mart ayında Keçili kəndindəki döyüşlərdə öldürülənlərin arasında milis işçiləri də var idi. Bu yarımfəsildə Keçili döyüşləri barədə ətraflı söz açılır, arxiv sənədləri əsasında bir sıra hadisələrin səciyyəsi verilir. Göstərilir ki, 1930-31-ci illərdə kolxoz quruluşu əleyhinə çıxanların sayı artır, onlar öz etirazlarını müxtəlif üsullarla bildirir, mübarizələrini davam etdirirlər.

Qasım Tağıyevin Kolanı qaçaqlarının başçısı Məşədi Məhi ilə görüşü barədə xatirələri bir sıra yönlərdən maraq doğurur. Məşədi Məhiyə qarşı bir sıra rəhbər işçilərin münasibəti sovet rejiminin səciyyəvi cəhətlərini özündə əks etdirir. Faktlar əsasında göstərilir ki, bu cür mərd, el arasında dərin hörmət, nüfuz yiyəsi olan şəxsiyyətə qarşı düşmən münasibət xalq arasında kəskin mənfi reaksiyalar doğurur, onlarda yeni quruluşa inamsızlıq, daxili nifrət hissi yaradırdı.

Həmin dövrdə, 31 iyulda Şahbuz rayon milis şöbəsinin əməkdaşı Hüseyn Fərzəliyev öldürülür.

Bu yarımfəsildə müxtəlif milis şöbələrində çalışan İ.Fərzəliyev, Ə.Məmmədov, A.Vəzirov, Q.Hüseynov, T.Qulamov, Q.Bayramov, H.Nağıyev, M.Fətullayev, N.Qəhrəmanov, S.Abbasov, H.Babayev və başqaları haqqında danışılır, onların fəaliyyəti əsasında dövrün bir sıra hadisələri xarakterizə olunur.

Sənədlərdən məlum olur ki, 30-cu illərin əvvəllərində 300-ə qədər naxçıvanlı “kulak” damğası ilə sürgün olunur. Qurbanlar arasında kasıb kəndlilər çoxluq təşkil edirdi.

Milax, Sələsüz, Ərəfsə, Qışlaq, Kolanı və başqa yaşayış məntəqələrinə qarşı münasibət daha kəskin olmuşdur. Təhlükəsizlik orqanlarında, Daxili İşlər Komissarlığında işləyən ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər haqqında çoxlu yeni arxiv sənədləri əldə olunmuşdur.

Məhz onların əli ilə “Keçili işi”, “Milax işi” və digər hadisələr uyduruldu, nəticədə çoxlu günahsız adam qətlə yetirildi. Göründüyü kimi, bu dövrdə də ermənilərin azərbaycanlılara qarşı düşmənçiliyi yeni xarakter alır, dövlət səviyyəsinə qaldırılır, günahsız azərbaycanlıların düşmən obrazı

hüquqi sənədlərlə yaradılırdı. ən dəhşətlisi budur ki, bu işdə onlara "əmir quluna" çevrilmiş, bəlkə də hadisələrin əsl mahiyyətini anlamayan özümüzünkülər də bəzən kömək edirdilər.

Sənədlərdən aydın olur ki, orqanlarda işləyən ermənilər polis sistemində müxtəlif vəzifələrdə çalışan bir çoxlarının keçmişdə xan-bəy olmasını əsas gətirib onları ya güllələmiş, ya sürgün etmişlər. Yunis Naxçıvanski, Əli bəy Kəngərlinski, Həsən Musayev, Məşədi Heydər Babayev, Qurban Səfəroğlu, Balabəy Balabəyov və başqaları belə qurbanlardan idilər.

Arxiv sənədlərinə əsasən demək olar ki, 1930-40-cı illərdə Naxçıvanda təhlükəsizlik və milis orqanlarında yüksək vəzifə tutanlar arasında ermənilər çoxluq təşkil etmişlər.

1940-cı ilin avqust ayında Azərbaycan SSR Ali Soveti "Sənayedə xırda oğurluq və xuliqanlığa qarşı məsuliyyət haqqında" qərar qəbul etdi. Bu qərarla əlaqədar milisin fəaliyyətində yeni istiqamətlər meydana gəldi.

1941-ci ilin aprel ayına kimi Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığı nəzdində fəaliyyət göstərən təhlükəsizlik şöbəsi Naxçıvan MSSR Ali Sovetinin fərmanı ilə ayrılaraq yeni komissarlığa çevrildi.

İkinci yarımfəsil **"Naxçıvan polisi müharibə illərində"** adlanır. Həmin dövrdə yüzlərlə naxçıvanlı milis işçisi cəbhəyə getmişdi. Onlardan T.Məmmədov, İ.Nəbiyev, Z.Zeyniyev, C.Hüseynov, S.Əliyev, B.Əliyev və başqaları haqqında danışılır. Şahbuz rayon milis şöbəsinin işçisi Tahar Məmmədovun cəbhədəki qəhrəmanlığı barədə 1944-cü ildə bir sıra yazılar yazılır. Şair Əyyub Əhmədovun T.Məmmədova həsr olunmuş və "Şərq qapısı" qəzetində dərc olunmuş şeiri də onlardan biridir.

Sənədlərdən məlum olur ki, bu illərdə istər asayişin qorunmasında, istərsə də müdafiə fonduna yardım və hədiyyələr göndərilməsində Naxçıvan polisi xüsusi fəallıq göstərir.

Bu illərdə Naxçıvan Baş Milis İdarəsinin işçiləri müdafiə fonduna 65000 manat pul vermiş, cəbhəyə 612 qutu sovqat göndərmişlər.

Tank dəstələrinin yaradılması fonduna Şərur rayon milis işçiləri 55 min, Ordubadın milis işçiləri 38 min, Culfanın milis işçiləri 12 min, Naxçıvan rayon milis şöbəsinin əməkdaşları 52 min manat pul keçirmişlər.[119]

Hava desantları və kiçik diversant qrupları ilə mübarizə aparmaq üçün "Qırıcı batalyonlar" təşkil edilir. Ordubad rayonundakı dəstənin 1 yanvar

[119] "Şərq qapısı" qəz., 1942-ci il, 20 sentyabr.

1942-ci il tarixdə 75 nəfər,[120] Naxçıvanda fəaliyyət göstərən dəstənin isə 80 nəfər üzvü olmuşdur. Həmin batalyonların ayrı-ayrı sovetliklərdə şöbələri yaradılmışdı. Bu yarımfəsildə "Qırıcı batalyon"ların fəaliyyəti geniş təhlil olunur. Araşdırılan sənədlərdən və "Şərq qapısı" qəzetindəki məqalələrdən məlum olur ki, bu dövrdə milis işçiləri asayişi qorumaqla desantlara, həmçinin dövlət əmlakını oğurlayanlara, qanunçuluğu pozanlara qarşı fəal mübarizə aparmışlar.

Üçüncü yarımfəsil **"Naxçıvan polisi bərpa və quruculuq illərində"** adlanır və 1946-1987-ci illər tədqiqata cəlb olunur.

1946-cı ildən başlayaraq 100-dən artıq yeni kadr milis orqanalrına xidmətə göndərilir. Cəbhədən qayıdanların milis sisteminə işə göndərilməsi orqanların işində əsaslı dönüş yaradır. İxtisaslarını artırmaq üçün 1947-1955-ci illərdə 30-dan artıq milis işçisi Bakı milis məktəbinə göndərilir.

İxtisaslı milis kadrlarının hazırlanmasında 10 ilə yaxın (1942-1951) Naxçıvan MSSR Daxili İşlər naziri işləmiş Qarabala Kərim oğlu Nağıyevin böyük əməyi olmuşdur.

Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, şəxsi əmlakın oğurlanmasının qarşısının alınması, ictimai asayişin qorunması və s. sahədə Naxçıvan polisinin fəaliyyəti konkret faktlar əsasında geniş təhlil olunur, ümumiləşdirmələr aparılır. Məsələn, şəxsiyyət əleyhinə qarşı törədilən cinayətlərin təhlili göstərir ki, bu dövrdə cinayətlər əsasən oğurluq, qisasalma və digər zəminlərdə baş vermişdir.

1960-cı illərdə milis orqanlarında peşəkar, təcrübəli kadrların komplektləşməsi nəticəsində vətəndaşların şəxsi əmlaklarının oğurlanması, talan, quldurluq, qatillik və s. cinayətlərə qarşı mübarizə daha da gücləndi. Müxtəlif növ cinayətlərlə mübarizədən ötrü xüsusi hissələr yaradıldı.

12 mart 1974-cü il tarixdə Naxçıvan Vilayət Partiya Komitəsinin Konfransında Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev hüquq-mühafizə orqanlarının fəaliyyətində olan nöqsanları ciddi şəkildə tənqid etmişdir. Bu tarixi çıxışda qarşıya qoyulan vəzifələrlə Naxçıvan polisinin fəaliyyətində yeni bir mərhələ başlayır.

1970-80-ci illərdə muxtar respublikada böyük quruculuq işləri ilə yanaşı, qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsi sahəsində də genişmiqyaslı iş aparıldı.

Bu dövrdə post-patrul xidmətinin işinin yüksəldilməsi üçün bir çox işlər görüldü. 1972-ci ildə Daxili İşlər Nazirliyi yanında mühafizə bölməsi gecə milisi yaradıldı.

---

[120] Nax. MRDA: f. 648, s. 1, iş 1, v. 1-6.

Bu yarımfəsildə həmin dövrdə milis orqanlarında rəhbər vəzifələrin çalışmış, eləcə də Muxtar Respublika Daxili İşlər naziri postunu tutmuş kadrlar barədə məlumat verilir, onların iş üsulu, imkan daxilində, təhlil olunur, ümumiləşdirmələr aparılır.

Milis əməkdaşlarının əməliyyat-xidmət ustalığını artırmaq məqsədi ilə bu dövrdə çoxlu ixtisas məktəbi, ali məktəblər açılmışdır. SSRİ Daxili İşlər Nazirliyi Akademiyasında muxtar respublikadan 27 nəfər milis işçisi təhsil almışdır.

IV fəsil **“Naxçıvan polisinin erməni işğalçılarına qarşı mübarizəsi və müstəqil dövlətçiliyin möhkəmləndirilməsində polisin rolu”** adlanır.

**“Naxçıvan polsinin erməni daşnak təcavüzkarlarına qarşı mübarizəsi”** adlı birinci yarımfəslində göstərilir ki, 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə ermənilərin İrəvanda, Qarabağda, Naxçıvanda törətdikləri soyqırım yuxarı orqanlar tərəfindən uzun müddət ört-basdır edilmişdir. Bütün bunlar barədə arxivlərdə kifayət qədər material, dəlil-sübut olsa da, bütün bunlara 90-cı illərə qədər siyasi qiymət verilməmişdir.

Möhtərəm Heydər Əliyev cənablarının 18 dekabr 1997-ci il tarixli “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında”, 26 mart 1998-ci il tarixli “Azərbaycanlıların soyqırımı haqqında” fərmanları mühüm tarixi əhəmiyyətə malik sənədlərdir.

Bu tarixi sənədlər bizi öz tarixi yaddaşımıza dönməyə, uzun illər boyu kütləvi qətllərə və qırğınlara məruz qalmış millətimizin faciələrindən ibrət dərsi götürməyə, haqq işimiz uğrunda mücadiləyə qalxmağa, düşmənə qarşı ölüm-dirim savaşına atılmağa səfərbər etmişdir.

Fərmanda deyilir ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.[121]

Dünya şöhrətli siyasətçi Heydər Əliyevin rəhbərlik etdiyi komissiya dövlət arxivlərində saxlanılan hüquqi sənədlərə əsaslanıb 1948-1953-cü illərdə ermənilərin cinayətlərini təhlil edib xalqa çatdırmaqla həmin hadisələrə hüquqi-siyasi qiymət verilməsinə nail olmuşdur.

1988-ci ilin hadisələri də istisna deyil.

---

[121] Nax. MRDA: f. 613, s. 13, iş 730, v. 18-20.

1988-2000-ci illərdə Naxçıvan polisinin torpaqlarımızın bütövlüyü uğrunda erməni işğalçılarına qarşı mübarizəsi ilə yanaşı dövlətçiliyimizin möhkəmləndirilməsində gördüyü işlə də mühüm əhəmiyyət daşıyır.

1988-ci ildə ermənilərin azğın quldur dəstələri tərəfindən Qərbi Azərbaycanda 185 yaşayış məntəqəsi boşaldıldı, 230 min azərbaycanlı öz doğma yurdlarından didərgin salındı, yüzlərlə günahsız insan qətlə yetirildi.

Bu yarımfəsildə Naxçıvana pənah gətirən soydaşlarımızın burada yerləşdirilməsi, təhlükəsizliyinin təmini və s. sahədə Naxçıvan polisinin gördüyü tədbirlərdən danışılır, blokada vəziyyətinə düşən Muxtar Respublikadakı vəziyyət təhlil olunur.

Muxtar Respublikanın Ermənistanla həmsərhəd olan yaşayış məntəqələri müntəzəm atəşə tutulur. 1990-cı ildən başlayaraq vəziyyət daha da ağırlaşır. Əsas çətinlik polis işçilərinin üzərinə düşür.

1990-cı ilin 19 yanvarında Naxçıvan MSSR Ali Sovetinin fövqəladə sessiyası "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" məsələ müzakirə edir. Naxçıvan MSSR SSRİ tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir, SSRİ Ali Sovetindən tələb olunur ki, Naxçıvana edilən təcavüzə son qoyulsun.

Bu qərar və dünya xalqlarına müraciət heç də birmənalı qarşılanmır. Naxçıvan öz-özünü qoruyur və 1990-cı ilin yanvarında ilk şəhidlərini verir. Polis kapitanları Məhərrəm Seyidov və Həsən Vəliyev Sədərək kəndinə gedən döyüşdə həlak olurlar. Havuş kəndindəki döyüşlərdə polis serjantları Fikrət Vəliyev, Rasim Şəfiyev, sıravi İmamverdi Həsən oğlu da düşmən gülləsinə tuş gəlirlər.

Polis əməkdaşları doğma torpaqları qəhrəmancasına müdafiə edirlər.

Bu yarımfəsildə polis əməkdaşlarının qəhrəmanlığı barədə çoxsaylı faktlar təqdim olunur. Hadisələri xalqa çatdırmaq məqsədi ilə televiziya və mətbuatda müntəzəm olaraq DİN rəhbərləri çıxış edirlər.

İkinci yarımfəsil **"Müstəqil dövlətçiliyin qorunmasında polisin rolu"** adlanır. Ermənilərlə vuruşan və döyüşən orduya çevrilən polis müstəqil dövlətçiliyimizin qorunmasında da fədakarlıq göstərirdi. 1990-cı ilin sonlarında Muxtar respublikada sabitliyi pozmağa çalışan qüvvələr çox idi. Qanunsuzluq edən bu qüvvələr polis əməkdaşlarını təhqir edir, ölümlə hədələyirlər. Bu gərgin vəziyyətdə polis əməkdaşlarının səyi nəticəsində terror, quldurluq, soyğunçuluq, qəsdən adamöldürmə, dövlət və şəxsi əmlakın oğurluğu və s. ağır cinayətlərin sayı xeyli azalmış, sabitlik təmin edilmişdi.

Bu yarımfəsildə bütün bunlar barədə söz açılır, hadisələr təhlil olunur.

Məlumdur ki, ümummilli liderimiz Heydər Əliyev cənablarının Naxçıvan Ali Məclisinə sədrlik etdiyi dövrdə həyata keçirdiyi tədbirlər istər Azərbaycan Respublikasında hakimiyyətdə olan, istərsə də Naxçıvan MR yerli hakimiyyət orqanlarında möhkəmlənən bəziləri tərəfindən heç də birmənalı qarşılanmırdı. Ona görə də kəskin ziddiyyətlər yaranmışdı. Heydər Əliyevin müdrikcəsinə apardığı siyasət həmin qüvvələri narahat edirdi.

1992-ci ildə Muxtar Respublikada dövlət hakimiyyəti açıq-aşkar təhlükədə idi. Xalq Heydər Əliyevə, onun ağlına, zəkasına, qüdrətinə inanırdı. Polis qüvvələri Heydər Əliyevin müəyyənləşdirdiyi xəttə əsl sədaqət nümunəsi göstərdi.

Bütün bunlar barədə çoxasylı faktlar gətirilmiş, Naxçıvandakı gərginliyin aradan qaldırılmasında polisin fəaliyyəti hərtərəfli şəkildə əsaslandırılıb.

Xalqın tələbi ilə Heydər Əliyev Bakı şəhərinə getdikdən sonra Naxçıvanda qanunsuz hərbi birləşmələr tərəfindən törədilən cinayətlər xalq arasında gərginlik yaratmış, ictimai asayiş, demək olar ki, pozulmuşdur.

Naxçıvan polisi yenidən ağır sınaqdan çıxmalı olur. 1995-ci ildə muxtar respublikada cinayətkarlığın qarşısını almaq məqsədi ilə bir sıra tədbirlər həyata keçirilmişdir. 1995-ci ilin 9 ayında 1994-cü ilin müvafiq dövrü ilə müqayisədə Muxtar Respublikada cinayət hadisələrinin sayı 68 hadisə azalmışdır. Belə ki, ağır cinayətlərdən qəsdən adamöldürmə 2, bədənə ağır xəsarət yetirmə 6, soyğunçuluq 1, dövlət əmlakının oğurlanması 2, şəxsi əmlakın oğurlanması 27, dələduzluq 3, xuliqanlıq 4, avtomaşın qaçırılması 4 hadisə azalmışdır. Cinayət hadisələrinin açılma faizi də yüksələrək 1994-cü illə müqayisədə 82,6 faizdən 90,7 faizə çatmışdır.

Ulu öndərimiz Heydər Əliyev cənablarının yeritdiyi müdrik siyasət nəticəsində Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi ardıcıl surətdə davam etmiş, ictimai-siyasi sabitliyin dönməzliyi bir daha təsdiqlənmiş, müstəqilliyimizin və dövlətçiliyimizin inkişafı istiqamətində mühüm işlər görülmüşdür.

Naxçıvan MR Daxili İşlər orqanları da bu prosesdə var qüvvə ilə iştirak etmiş, qanunçuluq və insan hüquqlarının təmin olunması, cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin mühafizəsində kompleks əməli tədbirlər həyata keçirmişlər.

Bu yarımfəsildə son 15 ildə Naxçıvan MR Daxili İşlər naziri işləmiş kadrlar haqqında da ətraflı məlumat verilmiş, onların iş üslubundakı səciyyəvi cəhətlərdən söz açılmışdır.

Naxçıvan polisinin 2001-2008-ci illərdəki fəaliyyəti də tədqiqata cəlb olunmuşdur.

**Nəticədə** Naxçıvan polisinin keçdiyi inkişaf yolunun tədqiqindən əldə olunan elmi nəticələri aşağıdakı kimi qruplaşdırmaq olar:

-Naxçıvan polisinin tarixi heç də XX əsrin sovet quruculuğu dövründən başlanmır. Hələ xanlıq dövründə naibliklərdə fəaliyyət göstərən darğalar indiki sahə müvəkkillərinin işini görmüş, naiblər onların hesabatlarını dinləyib sərəncamlar vermiş, qanun və adətlər üzrə şikayətlərə baxmışlar.

-Tədqiqat göstərir ki, Türkmənçay müqaviləsindən sonra Naxçıvan əyalətində İran feodal hakimiyyətindəkindən fərqli olaraq yeni idarə üsulu yaradılır. Naxçıvan şəhər idarəsi bir polis, iki məhkəmə idarəsini özündə birləşdirir. İlk qəza polis idarəsi bölgədə 1840-cı ilin 10 aprelində yaranır. 1868-ci ildə polis idarələri qəza polis idarələrinə birləşdirilir. Araz-Türk Respublikası dövründə Daxili İşlər Komissarlığı təsis edilir (Məhəmmədəli xan Naxçıvanski onun rəhbəri təyin olunur).

-İlkin mənbələrdən məlum olur ki, Erməni vilayətini yaratmaqla çar hökuməti bölgədə vəziyyəti "rus otunu iran çörəyindən üstün tuturuq" deyən ermənilərin xeyirinə dəyişdirmək, həm də öz məqsədinə çatmaq niyyəti güdürdü. Polisin fəaliyyəti də məhz bu istiqamətə yönəldilmişdi.

-Çar hökuməti dövründə polisdə yüksək vəzifələr yalnız qeyri-azərbaycanlılara həvalə olunurdu. Ancaq rus məmurlarının etibar edib zəmanət verdikləri azərbaycanlılar polisdə işə qəbul olunurdu. Çar hökumətinin polislə bağlı siyasəti tamamilə anti-azərbaycan ruhlu idi. Qeyri-azərbaycanlıların polisə yerləşdirilməsində əsas məqsədlərdən biri müsəlman-erməni toqquşmalarında ermənilərə kömək göstərilməsi idi. Baş ştaba göndərilən raportlarda bütün günahlar azərbaycanlıların üzərinə yıxılır, hökumət qüvvələrinin əli ilə onların öldürülməsinə bəraət qazandırılırdı. Eləcə də Naxçıvanda polis idarələrinin təftişinin ermənilərə tapşırılması da bu siyasətin nəticələrindən idi. Ermənilər nəinki torpaqlarımızda yerləşdirilir, hətta onların ata-babalarımızdan qalma torpağı yenidən bizə satmalarına münbit şərait yaradılır, Naxçıvan qəzasının yeraltı sərvətlərinə yiyələnmələri üçün rusların, ermənilərin, gürcülərin bura axınına planlı şəkildə rəvac verilirdi.

-Məlumdur ki, məşhur Kəngərlilər sülaləsindən olan bir çox görkəmli şəxsiyyətlər, ədəbiyyatımızın korifeyi Cəlil Məmmədquluzadə,

yazıçı Əli Səbri Qasımov, ədəbiyyatşünas Əziz Şərif ya polis orqanlarında çalışmış, ya da bu və ya digər dərəcədə fəaliyyət göstərmişlər. Əldə olunmuş yeni materiallar sübut edir ki, onların fəaliyyətində milli təəssüb, millətin və vətənin xeyrinə çalışmaq əsas yer tutmuşdur. Erməni-müsəlman toqquşmaları zamanı azərbaycanlıların polis vəzifəsindən uzaqlaşdırılması bunu bir daha təsdiq edir.

-İlkin mənbələrdən bir daha məlum olur ki, XIX əsrin axırları və XX əsrin əvvəllərində çar hakimiyyətinin Azərbaycanda, eləcə də Naxçıvan qəzasında yartadığı faciələr, kəndlilərin ağır vəziyyətə düşməsi, kəndlilərin var-yoxunun mülkədarlara verilməsi, dövlətə müxtəlif mükəlləfiyyət və vergi ödəməklə özlərinin ac-yalavac qalması, bununla yanaşı təqib olunub, zor gücünə əllərində olanın alınması, xalqın gələcəkdə öz ağasına və çar hökumətinə, vergi yığan polis məmuruna nifrətini artırmaqla geniş kəndli hərəkatına, qaçaqçılıq və şəhərdə isə azadlıq uğrunda mübarizəyə rəvac verirdi.

-Naxçıvanda kəndli hərəkatının ilk dövrlərində, qaçaq mübarizəsi tarixində Nəbi, şübhəsiz ki, mühüm yer tutur. Nəbi təkcə Zəngəzur qəzasında deyil, Naxçıvan, Şərur-Dərələyəz və Yelizavetpol qəzalarında da geniş şöhrət qazanmış, imperiyanın, necə deyərlər, “başını ağrıda” bilmişdir.

-1905-1907-ci illərdə Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında Rus imperiyası və Tiflis daşnak şurasının fitvası və köməyi ilə yerli erməni daşnakları tərəfindən Ordubad, Tivi, Zeynəddin, Nurs, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tumbul və b. kəndlərdə, eləcə də Naxçıvan şəhərində törədilən qanlı qırğınların dəhşətli nəticələri sənədələrdə öz əksini tapmışdır. İlk dəfə bu dissertasiyada elmi dövriyyəyə buraxılan həmin faktların erməni vəhşiliyinin sübutu kimi beynəxalq ictimaiyyətə çatdırılması zəruridi.

-Təqiqat göstərir ki, bölgədə azadlıq düşüncəsi, milli duyğular, istiqlal arzusu həmişə güclü olmuşdur. Qaçaq hərəkatının 1818 və 1920-ci illərdə geniş vüsət alması, ilk növbədə rus işğalı ilə bağlı idi. Qaçaq hərəkatına qarşı polis orqanlarının fəaliyyətindəki ziddiyyətlər də bunu təsdiq edir. 1900-cu ilin əvvəllərində qaçaq kəndli hərəkatlarına, Cənubi Azərbaycandakı vəziyyətə görə polis mühafizə dəstələrinin sayının artırılması, hərbi-polis qüvvələrinin saxlanılması üçün ayrılan məbləğin artırılması çar hökumətinin şovinist siyasətinin, azadlıq duyğularını milli ruhu,  boğmaq cəhdinin nəticəsi idi. Arxiv sənədləri əsasında aparılan ümumiləşdirmələr çar rejiminin bölgəyə, Azərbaycan türklərinə düşmən münasibətinin geniş mənzərəsini yaratmağa imkan verir.

-1916-cı ildə Ömər Faiq Nemanzadə, Eynəli bəy Sultanov, Kərbəlayı Qafar Səfərəlibəyov, Rauf bəy Səfərəlibəyov, İsmayıl bəy İsmayılbəyov, Hüseynəli Qurbanov və başqaları “panislamist”, “pantürkist” damğası ilə həbs olunmuşlar. Sovet dönəmində də eyni məkrli siyasətin davam etdirilməsi zaman-zaman rus hökumətlərinin Azərbaycanda eyni siyasət aparmağını sübut edir.

-Ermənilərin Naxçıvana təcavüzü ilə əlaqədar yerli əhalinin azərbaycanlı polislərlə birgə gərgin mübarizəsi və Türkiyənin siyasi köməyi düşmənlərin məkrli siyasətinin qarşısını almaqda həlledici rol oynamışdır. Çar hökumətinin, Sovet Rusiyasının Mərkəzi və Güney Qafqaz hakimiyyət orqanlarının bütün səylərinə baxmayaraq ermənilər öz istədiklərinə nail ola bilməmişdir.

-1918-1920-ci illərdə Naxçıvana soxulan ermənilərə qarşı Qırmızı taborçuların polis əməkdaşlarının qəhrəmanlıq mübarizəsi arxiv sənədlərində öz geniş əksini tapmış, həmin faktlar bu tədqiqatda ilk dəfə elmi dövriyyəyə daxil edilmişdir.

-Sənədlər sübut edir ki, bu dövrdə polisin fəaliyyətini həm də bölgədə baş verən hadisələr şərtləndirir. Məhz elə buna görə də çarizmin siyasəti vəziyyəti gərginləşdirdiyi kimi, polisin fəaliyyətini də mürəkkəbləşdirir.

-İlkin mənbələr əsasında sübut olunur ki, çar hökumətinin sovet rejimini əvəz etməsi bölgə polisi ilə bağlı siyasəti bir o qədər də dəyişdirməmişdir.

-1922-ci ildə yaradılmış “Milislərin təmizlənmə komissiyası”nın Naxçıvan polisi sıralarındakı milli qüvvələrə qarşı məqsədyönlü mübarizəsi bunu bir daha təsdiq edir.

-Qolçomaq təsərrüfatının məhdudlaşdırılması və onun aradan qaldırılması yerlərdə üsyanların baş verməsinə səbəb oldu. Belə ki, Şahbuz rayonunun Keçili, Külüs, Biçənək, Tırkeş, Sələsüz, Aşağı Qışlaq, Şərur rayonunun Dəmirçi, Yengicə, Mahmudkənd, Püsyan, Əbrəqunus (Culfa) rayonunun Milax, Ərəfsə və s. kəndlərində baş verən üsyanların səbəblərindən biri də bu idi.

-1930-cu ilin mart ayında Şahbuz rayonunun Keçili kəndində baş verən üsyanlar və onların tabeliyində olan dəstələr ilə döyüşlərdə Naxçıvan ÇK-nın məsul əməkdaşı Qənbər Qənbərov, Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarının müavini və Baş Milis İdarəsinin rəisi Abbas Qasımov, milis işçilərindən Aban Quliyev, Qurban Qurbanov, ÇK-nın əməkdaşlarından Kəlbalı Eynullayev, Yusif Mustafayev, Qarabağlar kənd sovetinin sədri Xudayar İsmayılov, Əbrəqunus rayon icraiyyə komitəsinin

sədri Fərhad Əliyev, sərhədçilərdən İ.Jeleznyak, V.Zaxarov, M.Şumkin, İ.Afanasyev və başqaları həlak olmuşlar. Həmin döyüşlər barədə uzun illər yazılanlardan fərqli olaraq arxiv sənədlərindən əsl həqiqətlər üzə çıxarılmışdır.

-1932-1940-cı illərdə polis orqanlarındakı ermənilərin əli ilə uydurulmuş "Keçili işi", "Milax işi" və s. sovet hökumətinin çar siyasətini davam etdirməsinin sübutlarından biri idi. Bu fitnəkar hərəkətlər həm də Naxçıvan polisi sıralarında çalışan milli qüvvələrə qarşı yönəldilmişdir. Bununla bağlı tədqiqatda ilk dəfə çoxlu arxiv sənədlərinə istinadən yeni faktlar aşkarlanmışdır.

-Müharibə illərində milis işçilərinin alman-faşist işğalçılarına qarşı ön cəbhələrdəki qəhrəmanlıqları və arxa cəbhədə fədakarlıqları, milis əməkdaşlarının müdafiə fonduna etdikləri yardımlar və s. barədə ilkin məlumatlar üzə çıxarılmışdır.

-Bərpa və quruculuq illərində Muxtar Respublika polis orqanları siyasi fəallıq və əmək coşğunluğu ilə çalışırdılar. Təbiidir ki, müharibənin yenicə başa çatdığı bir ölkədə qəsbkarlıq, soyğunçuluq, dövlət əmlakını oğurlama və s. cinayətlərə qarşı mübarizə daha da gücləndirildi. Naxçıvanda bu baxımdan aparılan işlərin yeni faktlar əsasında dissertasiyada geniş mənzərəsi verilmişdir.

-Arxiv sənədləri və əldə edilmiş yeni materiallar sübut edir ki, dahi rəhbərimiz, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişi ilə Naxçıvan polisinin həyatında da yeni mərhələ başlayır. Məhz bu dövrdən başlayaraq Naxçıvan Muxtar Respublikasında hər bir vətəndaşın hüquqlarının qorunması hüquq-mühafizə orqanlarının, həqiqi mənada, əsas vəzifələrindən birinə çevrilir.

-Ulu öndərimiz Heydər Əliyevin "Mən Azərbaycan Prezidenti kimi, Ali Baş Komandan kimi sizə etibar edirəm, sizə inanıram, sizə arxalanıram" – söyləməsi Azərbaycan polisinin fəaliyyətinə verilən ən böyük qiymətdir. Ulu öndər bütün fəaliyyəti boyu Azərbaycan polisinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm qərarlar qəbul eymiş daim onların qayğısına qalmışdır. Bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev də polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə xüsusi önəm verir, daxili işlər orqanlarının maddi-texniki bazasının gücləndirilməsi yönümündə mühüm tədbirlər həyata keçirir.

-1988-ci ildən başlayaraq Naxçıvan polisinin döyüşən orduya çevrilməsi, Qərbi Azərbaycandan məcburi köçürülmüş soydaşlarımızın polis tərəfindən bölgədə qarşılanması, yerləşdirilməsi, onların hüquqları

uğrunda gərgin mübarizə aparılması ilə bağlı yeni materiallar tədqiqata cəlb edilmiş, aparılmış ümumiləşdirmələr əsasında vətən tarixinin çox çətin bir dövrünün elmi mənzərəsi yaradılmışdır.

-Müstəqillik illərində Naxçıvan polisi tarixi təcrübə qazanmış, dövlətçiliyin qorunub saxlanılmasında, demokratik cəmiyyət quruculuğunda, cinayətkarlığa qarşı mübarizədə mühüm rol oynamışdır. Bu dövrdə Naxçıvan polis orqanlarının fəaliyyət dairəsi xeyli genişlənmiş, xidmətin keyfiyyəti dəyişilmişdir. Bütün bunlarla bağlı tədqiqatada yeni faktlar elmi dövriyyəyə gətirilmiş, ciddi nəticə və qənaətlər əldə edilmişdir.

-Bu gün Azərbaycan polisinin keçmişinə iftixarla nəzər salırıq. Müxtəlif zamanlarda polisin adı dəyişilsə də, o, fərqli quruluşlarda fəaliyyət göstərsə də, bəzən onun həyatında ziddiyyətlər olsa da, Azərbaycan polisinin tərkibində Naxçıvan polisi qəhrəmanlıqlarla, çətinliklərlə dolu bir yol keçmişdir. Bu yol vətən tarixinin mühüm hissəsini təşkil edir. Onu öyrənmədən, tədqiq etmədən vətən tarixini hərtərəfli şəkildə araşdırmaq, öyrənmək , qiymətləndirmək olmaz.

-Bütün dövrlərdə, zamanlarda amalı, məqsədi xalqa xidmət etmək, ictimai asayişi gözləmək, cinayətkarlığa qarşı mübarizə aparmaq, cinayətlərin qarşısını almaq, xalqımızın əmin-amanlığını təmin etməkdə olan Naxçıvan polisinin qazandığı özunəməxsus təcrübə və ənənələr tədqiqatda ümumiləşdirilmişdir.

**Dissertasiyanın mövzusu ilə əlaqədar müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**

1. Naxçıvan qəza polisi (1828-1920-ci illər). Bakı: Nurlan, 2008, 192 s.
2. Naxçıvan polisinin inkişaf yolu (1920-2008-ci illər). Bakı: Nurlan, 2008, 190 s.
3. Erməni vəhşiliyi. Bakı: Nurlan, 2009, 186 s.
4. Naxçıvan Polisi: fəaliyyətinin əsas istiqamətləri və mərhələləri. Bakı: Nurlan, 2011.
5. XX əsrdə ermənilrin azərbaycanlılara qarşı soyqırımı // Naxçıvan ictimai-siyasi, ədəbi-bədii, elmi-pubıisistik jurnalı, Naxçıvan, 2005, s. 66-83.
6. Naxçıvan qəzasında polisin yaranması və fəaliyyəti (1840-1917-ci illər) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası, 2006, № 2, s. 30-36.
7. Naxçıvan polisi 1918-1920-ci illərdə // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası, 2006, № 4, s. 29-38.
8. Polis məmuru və Naxçıvan şəhər başçısı Bəhram xan Naxçıvanski // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2007, № 2, s. 25-30.

9. Naxçıvan polisi Böyük Vətən müharibəsi illərində // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası,2007, № 3, s. 48-55.
10. Naxçıvan polisi repressiya illərində // Tarix və onun problemləri 2007, № 4, s. 126-129.
11. Naxçıvan qəzasında sovet hakimiyyəti qurulduqdan sonra polisin (milisin) yaradılması və dövlətin möhkəmləndirilməsində rolu (1920-1927-ci illər) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası,2008, № 1, s. 81-87.
12. Araz-Türk Respublikası dövründə və onun ləğvindən sonra polisin fəaliyyəti // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası, 2008, № 3, s. 47-53.
13. Böyük xan- Nəzərəli xan Naxçıvanski Mədəni-maarif jurnalı, 2008, № 9, s. 47-51.
14. XIX əsrin axırları və XX əsrin əvvəllərində polis orqanlarının fəaliyyəti və kəndli-qaçaq hərəkatına qarşı mübarizə // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, 2008, № 4, s. 163-168.
15. Naxçıvan şəhər polis pristavı köməkçisi Çingiz xan Kəlbalıxanov // Elmi axtarışlar. AMEA Folklor İnstitutu, 2008, № 5, s. 23-27.
16. Erməni təcavüzkarlarına qarşı Naxçıvan polisinin mübarizəsi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası, 2008, № 5, s. 33-38.
17. XIX əsrin əvvəllərində erməni-Azərbaycan toqquşmaları, Naxçıvanda demokratik hərəkatın başlanması və polis orqanlarının demokratik inqilabçılara qarşı mübarizəsi // Tarix və onun problemləri, 2008, № 3, s. 99-103.
18. XIX əsrin axırları və XX əsrin əvvəllərində polis orqanlarının fəaliyyəti və qaçaq hərəkatına qarşı mübarizə // Naxçıvan Dövlət Universitetinin elmi əsərləri, 2008, № 5, s. 14-18
19. Naxçıvan polisi bərpa və quruculuq illərində (1946-1970-ci illər) // Tarix və onun problemləri, 2008, № 1-2, s. 160-164.
20. Müstəqil dövlətçiliyin möhkəmləndirilməsində Naxçıvan polisinin rolu // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası, 2009, № 1, s. 48-52.
21. XX əsrin əvvəllərində Naxçıvan xanlığında qəza polisinin yaranması və fəaliyyəti (1828-1840-cı illər) // Yol Bilim Kültür Araştırma dergisi. Ankara, 2009,s. 154-157.
22. 1918-1920-ci illərdə Naxçıvan qəza polisinin erməni daşnaklarına qarşı mübarizəsi // Kültür Evreni, Ankara, 2009, № 2, s. 433-440.

23. Polis pöristavı Mehdi xan Zeynalabdinov (Ordubadski) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası 2009, № 3 s. 116-122
24. 1988-1991-ci illərdə Naxçıvan polisinin erməni təcavüzkarlarına qarşı mübarizəsi // AMEA. Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası,2010, № 1, s. 72-77.
25. Naxçıvan polisinin erməni təcavüzkarlarına qarşı mübarizəsi (1988-1993-cü illərdə). Bilimsel Eksen, Ankara, 2010, № 1, s. 127-132.
26. XX əsrin 30-cu illərində Naxçıvanda Polisin fəaliyyyəti // Naxçıvan Dövlət Universitetinin elmi əsərləri, 2010,№ 2, s. 42-45.
27. Heydər Əliyev və Azərbaycan polisi. Avrasya kurumu sempozum bildirirəri. 6. Nizamiden Yunus Emreyə ve Kemal Atatürkden Haydar Aliyev'e uzanan sevgi ve barış yolu sempozumu .Ankara, 2010, s. 180-185.
28. Heydər Əliyev Müstəqil Azərbaycan polisinin qurucusudur // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası 2010, cild 6, № 3, s. 74-79.
29. Cəlil Məmmədquluzadə Naxçıvan qəza Polis Pristavının köməkçisi kimi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası 2011 s. 52-58.
30. Cəlil məmmədquluzadənin həyatina dair bəzi məqamlar // Azərbaycan şünaslığın aktual problemləri, Ümumilli lider Heydər Əliyevin anadan olmasının 88-ci il dönümünə həsr olunmuş II beynəlxalq elmi konfansın materialları. Bakı: Gəncə, 4-7 may 2011, s. 178-183.
31. Naxçıvan polisinin Araz-Türk Respublikası dövründə və dövründən əvvəlki fəaliyyəti // Avrasya kurumu sempozyum. 7.Nizami'den Yunus Emreye, Kemal Atatürk'den Heyder Aliyeve uzanan sevgi və başarı yolu sempozyumu. Ankara, 2011, s. 206-215.
32. Naxçıvan qəza polis orqanlarında xidmət etmiş naxçıvanlılar // Naxçıvan Dövlət Universitetinin elmi əsərləri, 2011: № 1(37) s. 78-81.
33. Naxçıvan Polisinin tarixi və dövlətçiliyə sədaqəti // AMEA Naxçıvan Bölməsinin xəbərləri, ictimai və humanitar elmlər seriyası, 2011 cild:7№ 3, s. 70-76.
34. 1918-1920- ci illərdə Naxçıvan Qəza Polisinin Erməni daşnaklarına qarşı mübarizəsi // Avrasya kurumu sempozyum. 8.Nizami'den Yunus Emre'ye, Kemal Atatürk'den Haydar Aliyeve uzanan sevgi və başarı yolu sempozyumu bildiriləri. Ankara, 2012-10-10, s ,110-117.
35. Naxçıvan şəhər Polis Pristavı köməkçisi Çingiz xan Kalbalıxanov // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası, 2012 cild 8, № 1, s, 47-52.

36. Heydər Əliyev Müstəqil Azərbaycan Polisinin Qurucusudur // Avrasya kurumu sempozyum. 8.Nizami'dən yunus Emre'yə, Kemal Atatürk'dən Haydar Aliyev'e uzanan sevgi və başarı yolu sempozyumu bildiriləri. Ankara, 2012, s. 96-102.
37. Naxçıvan Milisi (Polisi) Sovet Hakimiyyətinin ilk illərində // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası,2012, cild 8, № 3, s. 54-59.
38. Naxçıvan Qəzasinda Qaçaq Hərəkatına Qarşı Naxçıvan Polisinin Mübarizəsi // Naxçıvan Dövlət Universitetinin elmi əsərləri. 2012, № 2, s. 96-102.
39. Polis Məmuru Şirəli Bəy Kəngərli // AMEA Naxçıvan Bölməsi İncəsənət. Dil və Ədəbiyyat İnistitu axtarışlar elm toplusu. IV(6), 2012, s. 39-42.
40. Naxçıvan Milisi Repressiya illərində (1930-1940-cı illər) //AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyası, 2013 cild 9, № 1, Naxçıvan,
41. Нахчеванцы в уездных органах полиции Нахчыванского края (XIX начало XX вв) // Национальний Педагогiчний Университет имени М.П.Драгоманова Украинська Академiя Наук "Гiлея", Випуск 71(№4), Киев, 2013, с. 330-335.
42. Полиция в Нахичеванском уезде после присоединения края к России (1840-1917) // Российский исторический иллюстрированный журнал Родина, 6/2013, с. 70-71.
43. Bəhram xan Naxçıvanski // AMEA Naxçıvan Bölməsi İncəsənət. Dil və Ədəbiyyat İnistitu axtarışlar elm toplusu. II(8), 2013, s. 132-135.
44. XX-yüzyilin başlarında Naxçıvan polisinin halkla birliktə terörlə mücadiləsi // Akademik Bakış Dergisi Uluslararası Hakımli Sosyal Bilimlər E-Dərgisi İktisat və Gerişimcilik Ünversitesi, Türk Dünyası Kırğız- Türk Sosyal Bilimlər Enstitüsü, Celalabat- Kırgızistan. Eylül-Ekim 2013 sayi: 38, s.1-13.

**F. A. JAFAROV**

# THE ESTABLISHMET AND ACTIVITY OF LAW ENFORCEMENT ORGANS (POLICE) IN NAKHCHIVAN (1828 – 2000 YEARS)

## SUMMARY

In the part of Introduction grounds for problem topicality, scientific novelty, theoretical and practical significance of the subject, the history of investigation are provided, goals, objectives, methodological principles of the research are defined, information about approbation is given.

The first chapter of the dissertation in which the history of Nakhchivan police is studied as a component of our history is called "The establishment and activity of Nakhchivan uyezd police after Nakhchivan's being invadeded by Russia".

In the semi-chapter called "1.1.The organization of law enforcement work in Nakhchivan khanate at the beginning of the nineteenth century" generalizations reflecting the activity of Nakhchivan police and court are carried out on the basis of numerous facts, many items remained unknown up to now are investigated systematically and thoroughly.

In the second semi-chapter the questions connected with the organization and activity of Nakhchivan uyezd police are studied on the national plane. New archival documents connected with the service of the members of Kangarlis, Nakhchivanskis, Vazirovs in Nakhchivan city and uyezd police organs are dealt with.

The second chapter called "The Nakhchivan police at the end of the XIX century and at the beginning of the XX century" consists of two semi-chapters: "2. 1. The activity of police organs and their struggle against peasant movement (outlaw movement) at the end of the XIX and at the beginning of the XX centuries"; "Armenian-Azerbaijani conflicts at the beginning of the XX century, the beginning of the democratic movement in Nakhchivan and the struggle of police organs against the revolutionaries"

The investigation shows that the policy of the tsar government connected with police is characterized by its anti-azerbaijani character. The reasons of outlaw movement are explained, the attitude of the police towards some events happened in some settlements and Sattarkhan movement is interpreted.

The third chapter is called “The Nakhchivan police in the years of 1917-1920”.

In the semi-chapter called “3. 1. Social-political condition in Nakhchivan region, Andranik Ozanyan’s aggression on Nakhchivan region and the struggle of the local population together with the police” the events occurred at that time are investigated, the role of Nakhchivan police in these events is elucidated. The activity of the Ministry of Internal Affairs during the reign of the Araz-Turkish Republic is studied in the second semi-chapter, generalizations are carried out.

The fourth chapter of the dissertation is dedicated to the research of the activity of the Nakhchivan police in 1920-1987.

A lot of events happened in those years in Nakhchivan region have been analyzed on the basis of new archival documents.

In the second semi-chapter the work of the police in the years of war is studied, the third semi-chapter deals with the activity of the police in the years of restoration and construction, it is shown that with the speech of the first secretary of the Azerbaijan CP SC Heydar Aliyev in the conference of Nakhchivan Province Party Committee on the $12^{th}$ of March, 1974 objectives of the police are defined and a new stage in the activity of the Nakhchivan police begins.

The fifth chapter is called “The struggle of the Nakhchivan police against the Armenian invaders and the role of the police in the strengthening of the independent statehood”.

In the semi-chapter called “5.1.The struggle of the Nakhchivan police against the Armenian invaders” the measures taken by the Nakhchivan police during the events beginning from 1988 are analyzed, light is thrown on the heroic struggle of the people against the occupiers. The second semi-chapter deals with the activity of the police organs in the defense and strengthening of the independent statehood. In the part of Conclusion the main scientific results of the research are generalized.

**Ф.А.ДЖАФАРОВ**

# ЗАРОЖДЕНИЕ И ДЕЯТЕЛЬНОСТЬ ПРАВООХРАНИТЕЛЬНЫХ ОРГАНОВ (ПОЛИЦЕЙСКИЙ) В XIX-XX ВЕКАХ (1928-2000 ГОДАХ) В НАХЧЫВАНЕ

## РЕЗЮМЕ

Диссертаций состоит из введения, пяти глав, заключения и списка использованной литературы.

Во введении обоснованы актуальность темы, показаны объект исследования, предмет, цель и задачи, научные источники, теоретические и методологические основы диссертации, даны сведения о степени изучения темы, апробации, научные новизны, теоретическая и практическая значимость исследования.

Первая глава диссертации под названием «Зарождение и деятельность провинциальный полицейский в Нахчыване, после оккупации Нахчыванской земли России (1828-1890 годы)» исследуется исторический путь Нахчыванской полиции как часть нашей истории.

В первом разделе I части под названием «Формирование правоохранительных органов в Нахчыванском ханстве в начале XIX века», систематически и всесторонне исследованы судебные и полицейские деятельности отраженными с многочисленными фактами и архивными материалами, которые еще не выявлены при исследованиях.

На втором разделе I части по национальному контексту изучается формирование и деятельность правоохранительных органов. Здесь сообщается о новых архивных документах, которые связанные с династиями Кянгерли, Нахчыванским и Везировым, и об их деятельности в городских организациях полиции.

На второй части под названием «Нахчыванская полиция в конце XIX, в начале XX века (1891-1917) годы» состоит из двух разделов: 2.1. «Деятельность полицейских организаций в конце XIX, в начале XX века и борьба против крестьянских движений (движение разбойников)»; 2.2. «Азербайджано-армянское столкновение в начале XX века. Наступление демократического движения в Нахчыване и борьба полиции против революционеров».

Исследование подтверждает, что политика царского государства, которая связана полициями регионов, носили анти азербайджанского характера. Здесь одновременно выясняется причины движения разбойников, случи происходившие в ряд жилищах, и отношения полиции к революционному движению Саттархана.

Третья часть называется «Нахчыванская полиция 1917-1920 годов». В этой части первый раздел называется «Общественно политическое положение в Нахчыванском регионе, вторжение Андроника Озаняна в этот регион и совместная борьба местных жителей против этого разбойника». Здесь исследуется события, происходившие в этот период и роль Нахчыванской полиции в этих процессах. А на втором разделе исследуется, и обобщаются деятельность Министерство Внутренних Дел в период Аразско-Тюркской Республики.

Четвертая часть диссертации посвящена к исследованиям деятельности Нахчыванской полиции 1920-1987 годов. Здесь на основе новых архивных материалов досконально описывается ряд исторические процессы этих годов.

На II и III разделе четвертой части всесторонне изучается полицейские деятельности военных времен и после него, описывается восстановление и строительство этих периодов в Нахчыване. В этих разделах научно исследуется и речь первого секретаря ЦК Коммунистической Партии Азербайджана Гайдара Алиева на конферансе КП Нахчыванской Области 12 марта 1974 года и выявляется, что после этим выступлением и поставленным вопросом, перед Нахчыванской полиции начинается новый период в их деятельности.

В часть под названием «Борьба Нахчыванской полиции против армянских захватчиков и их роль при укреплении нашего суверенного государства». В I разделе этой части описывается исторические процессы 1988 года, совместная борьба и героизм Нахчыванских полицейских вместе народом. А II раздел этой части полностью посвящен о роли и деятельности полицейских органов при укреплении и обороны суверенного государства. В результате обобщены все итоги исследований.

Çapa imzalanmışdır: 23.10.2013
Formatı: 60/84, 16/1
Sifariş: 67
Sayı: 100

***AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir.***

**НАЦИОНАЛЬНОЙ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

*На правах рукописи*

**ФАХРАДДИН АДИЛ ОГЛЫ ДЖАФАРОВ**

# ВОЗНИКНОВЕНИЕ И ДЕЯТЕЛЬНОСТЬ ПРАВООХРАНИТЕЛЬНЫХ ОРГАНОВ (ПОЛИЦИИ) В НАХЧЫВАНЕ В XIX-XX ВЕКАХ (1828-2000-ые годы)

**Специальность: 5503.02 – Отечественная история**

**Диссетация на соискание ученой степени**
**доктора исторических наук**

**А В Т О Р Е Ф Е Р А Т**

**НАХЧЫВАН – 2013**